Səs
№ 119 (6560) 7 iyul 2022-ci il. Qiyməti 60 qəpik

## “Azərbaycan xalqının tarixi irsi YUNESKO-nun gözü qarşısında dağıdılır”

4

# Ramana qəsəbəsi: abadlıq və yenilik ünvanı



2

# Yenidən MÜHARİBƏ GÖZLƏNİLİRMİ?



4

*Son vaxtlar müharibənin yenidən başlayacağı barədə Ermənistan cəmiyyətində spekulyasiyalar bu ölkənin gündəmini zəbt edib. İşğalçı ölkənin mətbuat səhifələrində belə Qarabağda müharibənin yenidən başlayacağı barədə anonslar verilir və bunun da həmin ölkədə hansı gərginliyə səbəb olduğu da sirr deyil.*

## Təpəbaşının dağıdılmasına dünya niyə göz yumur?



7

## DİASPOR NÜMAYƏNDƏLƏRİ: “Vətənə xidmət etmək şərəfli bir işdir”



8

## Oyunlar uşaq beyninə necə təsir edir?



*“Hər bir oyunun və məşğuliyyətin insan beyni və şüuraltına axtardığı detallar var. Necə ki, deyirlər hansısa kinolarda, qısametrajlı filmlərdə subnemativ mesajlar var, əslində, bizim uşaqlarımızın da oynadığı hər bir oyunda xüsusi təsir qüvvəsi var”.*

16



9

## Laçın, Şuşa, Kəlbəcər üçbucağı

Azərbaycanın bənzərsiz, möcüzəli, bəzən saatlarla qarşısında heyrət içərisində qaldığımız inanılmaz təbii gözəlliyə, yerlə göy arasına sığınan füsunkar coğrafi...

## Azərbaycan - Gürcüstan münasibətləri: 30 ilin reallıqları



10

*İqtisadi, siyasi, sosial və s. sahələrdə qurulan əməkdaşlıq münasibətləri dövlətlər arasında qarşılıqlı anlaşmanın qurulmasına və davamlı olmasına təsirini göstərir. Mövcud münasibətlər çoxşaxəli, qarşılıqlı maraq əsasında qurulub, əməkdaşlıq əlaqələrinin inkişafına üstünlük verilib.*

## İbrahimoviç “Milan”da 6 ayda nə qədər qazanacaq?




*"Milan" yaxın günlərdə futbolçusu Zlatan İbrahimoviçlə müqavilənin uzadılmasını açıqlayacaq. Qol.az "Sky Sport Italia"ya istinadən xəbər verir ki, 40 yaşlı hücumçunun yeni sözləşməsi 30 iyun 2023-cü ilə qədər nəzərdə tutulub. Nəşrin məlumatına görə, isveçli forvardın maaşı bonuslarla birlikdə 1.15 milyon avro olacaq.*



## “Aİ Azərbaycanın ərazi bütövlüyünü tanıyan bir qurumdur”

6

*“Avropa İttifaqı Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsinin imzalanması, sərhədlərin delimitasiyası və nəqliyyat-kommunikasiya xətlərinin...*

# Ramana qəsəbəsi: abadlıq və yenilik ünvanı

## *Prezident İlham Əliyev Ramana qəsəbəsində görülən abadlıq işləri ilə tanış olub*





***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Ramana qəsəbəsində görülən abadlıq işləri ilə tanış olub. "Bakı Abadlıq Xidməti" MMC-nin baş direktoru Bünyad Qasımov qəsəbədə görülən işlər barədə Prezident İlham Əliyevə məlumat verib. O qeyd edib ki, bütün kənd ərazisi 100 faiz tam işıqlıdır. Qeyd olunub ki, 300 iş yeri artıq mövcuddur, bundan başqa ilin sonuna qədər 450-yə qədər iş yeri açılacaq.***





Bildirildi ki, Ramana qəsəbəsində yenidənqurma işləri yekunlaşıb, qəsəbədaxili yollar asfaltlanıb, divar və dam örtükləri yenilənib, küçələrin işıqlandırılması həyata keçirilib. Qəsəbənin Həsənbəy Zərdabi, Xanlar, Mirzəağa Əliyev, Əbdürrəhim bəy Haqverdiyev və qəbiristanlıq ətrafı küçələri tamamilə yenilənib. Həmçinin ərazi tullantılardan təmizlənib.

Diqqətə çatdırıldı ki, Ramana qəsəbəsi Abşeron ərazisində turizm marşrutlarına daxil edilə biləcək abidələrlə zəngindir. Onlardan biri qəsəbənin girişində əzəməti ilə diqqəti cəlb edən, XII-XIV əsrlərə aid olduğu bildirilən Ramana qalası yüksək nöqtədə yerləşir. Ehtimal edilir ki, divarlarının hündürlüyü 15 metr olan qala müdafiə məqsədilə tikilib və Şirvanşahlar dövləti dövründə qəsr kimi istifadə olunub. Məşhur "Koroğlu", "Nəsimi" və "Babək" filmlərinin müəyyən səhnələri Ramana qalasında çəkilib. Dövlətimizin başçısı qalada aparılan bərpa işləri ilə tanış olub.

Ramananın qədim abidələrindən biri də Novruzqulu hamamıdır. Prezident İlham Əliyevə bu qədim hamam barədə də məlumat verildi. Bildirildi ki, keçmişdə hamamda dörd quyu fəaliyyət göstərsə də, indi onlardan üçü mövcuddur. Novruzqulu Babakişi oğlunun adını daşıyan hamam Abşeron yarımadasında yeganə tikilidir ki, onun sənədləri toplanıb və təsdiqlənib. Hamamın binasında keyfiyyətli bərpa işləri görülüb.

Qeyd edilib ki, Ramanada yenidənqurma işləri zamanı ətraf mühitin qorunması, qəsəbənin ekoloji vəziyyəti prioritet məsələlərdən biri olub.

Dövlətimizin başçısına Ramanada əhalinin məşğulluğunun artırılması sahəsində görülən işlər barədə də məlumat verildi. Qeyd edildi ki, qəsəbədə xalçaçılıq müəssisəsi və satış mağazası açılıb. Yaradılan yeni iaşə və xidmət obyektlərində məhsulların istehsalı və satışı həyata keçirilir. Bu obyektlər müştərilərə yüksək səviyyədə xidmət göstərmək, onların rahatlığını təmin etmək üçün zəruri vasitələr və avadanlıqlarla təchiz olunub.

Məlumat verildi ki, Pirşağıda hazırlanan quru meyvələrin satışı da Ramanada həyata keçiriləcək. Səyyar satış obyektləri və köşklərin quraşdırılması ilə məşğulluğun artırılmasına nail olmaq, həmçinin yerli əhali və turistlərin ehtiyaclarını qarşılamaq mümkündür.

Ramanada reallaşdırılan layihələrdən biri də vertikal bağçılıq layihəsidir. Layihənin məqsədi özünəməşğulluğun artırılmasına, aztəminatlı ailələrin daha çox gəlir əldə etməsinə və ailə təsərrüfatlarının inkişafına dəstək olmaq, həmçinin yaşıllıqların genişləndirilməsinə, bitkiçiliyin və kənd təsərrüfatı məhsulları emalının inkişafına töhfə verməkdir.

Daha sonra Dövlətimizin başçısı Ramanadakı evlərdən birinin həyətində qəsəbə sakini ilə söhbət edib. Qəsəbə sakini qeyd edib ki, dövlət başçısının tapşırığına və göstərişinə əsasən, evlərin damları, qapıları, divarları, darvazaları əsaslı təmir edilib. Şəhid və veteran ailələrinin evlərinə xüsusi diqqət yetirilib.

Ramana həm də ovdanları ilə məşhurdur. Qəsəbədə bərpaolunan tarixi abidələrdən biri də el arasında 40 pillə adlanan su ovdanıdır. Azərbaycan ərazisində, Abşeron yarımadasında və ona qonşu ərazilərdə ovdanlara daha çox təsadüf edilir. Bu yerlərdə içməli su mənbələri çox az olduğundan XVI-XVIII əsrlərdə içmək üçün yararlı olan lay sularından istifadə edilməsi məsələsi aktuallaşıb və ovdanlar yaradılıb. Bu qurğuların tikintisi XX əsrə qədər davam edib.

Prezident İlham Əliyevə su ovdanında görülən təmir-bərpa işləri barədə məlumat verildi. Ramana sakinlərinin həm sağlam həyat tərzi, həm də asudə vaxtlarını səmərəli keçirmələri üçün qəsəbədə İdman Mərkəzi inşa olunub. Mərkəzdə qapalı idman zalı, minifutbol meydançası yaradılıb. Dövlətimizin başçısı Ramana İdman Mərkəzində yaradılan şəraitlə də tanış oldu.







# AZƏRBAYCAN - REGİONUN GÜC VƏ SÖZ SAHİBİ!

## *İLHAM ƏLİYEV: "Bunu artıq hər kəs bilir ki, Azərbaycanla hesablaşmaq lazımdır"*

***İkinci Qarabağ müharibəsindəki şanlı Zəfəri ilə Cənubi Qafqazda yeni reallıqlar yaradan Azərbaycanın həm də beynəlxalq münasibətlər sistemindəki yeri və rolu daha da güclənib. Bu gün Azərbaycan yeni hərbi-siyasi güc mərkəzi, beynəlxalq arenada sözü eşidilən, mövqeyi qəbul edilən dövlət kimi qəbul edilir. Azərbaycanın regionda uzunmüddətli sülhün, əməkdaşlığın və təhlükəsizliyin təmin olunması üçün yaratdığı şərait beynəlxalq təşkilatlar və güc mərkəzləri tərəfindən də təqdir olunur.***

Bəli, 2020-ci il 10 noyabr üçtərəfli bəyanatla Azərbaycan Prezidenti İlham Əliyev yenə də diktə edən tərəfdir. Azərbaycan Prezidenti haqlı olaraq dəfələrlə bəyan edir ki, mövcud durumda situasiyanı Azərbaycan müəyyənləşdirir. İndi şərtləri cənab İlham Əliyev diktə edir: Paşinyan rejiminə güzəşt yoxdur. İllərdir sülh istəyən, humanist siyasət aparan Azərbaycanla artıq kimsə diktə dili ilə danışa bilməz. Çünki Azərbaycan hər zaman sülhün tərəfdarı olduğunu dünyaya bəyan edib. Ermənistan isə status-kvonun saxlanması üçün müxtəlif bəhanələr gətirib danışıqlar masasına oturmurdu. İndi Paşinyan danışıq aparmaq üçün açıq-aşkar yalvarır. Ancaq Azərbaycan Prezidenti onunla nəinki bir masada oturmaq, heç danışıq aparmaq belə istəmir. Çünki danışıqlara Paşinyanın "Qarabağ Ermənistanındır" sərsəm fikrindən sonra xitam verilib. Rusiya Federasiyasının vasitəçiliyi ilə baş tutmuş Azərbaycan Respublikası və Ermənistan Respublikası Xarici İşlər nazirlərinin Moskva görüşü nəticəsində 10 oktyabr 2020-ci il tarixi saat 12.00-dan etibarən humanitar atəşkəsə riayət olunması razılığının əldə olunmasına baxmayaraq, Ermənistan silahlı qüvvələri bu razılığı kobud şəkildə pozmaqla bir daha riyakarlığını nümayiş etdirdisə, Azərbaycan dövləti də haqq yolunda, Vətən yolunda mübarizə apardığını, erməni hiyləsinin, riyakarlığını, normal dövlət ola bilməməsini bir daha dünyaya nümayiş etdirdi. Bununla bir daha sübut olundu ki, humanitar məqsədə xidmət edən atəşkəslə yanaşı, ehtiyat tədbirləri də paralel aparılmalıdır. Artıq atəşkəs danışıqlarında, digər ikitərəfli, çoxtərəfli platformalarda şərtləri məhz Azərbaycan müəyyən edir. Bu, o deməkdir ki, Azərbaycana qarşı hər hansı şərtlərin irəli sürülməsindən söhbət gedə bilməz və atəşkəs istəyən tərəf beynəlxalq hüquq normalarına əməl etməlidir. Bu sadə gerçəkliyi artıq hamı başa düşməlidir. Paşinyan başa düşməlidir ki, monoetnik Ermənistandan fərqli olaraq, multikultural dəyərlərə, tolerantlığa və hər bir xalqın milli-mədəni irsinə hörmət prinsiplərinə sadiqdir. Prezident, Ali Baş Komandan İlham Əliyev Şuşadan regiona və dünyaya etdiyi çağırışları bir daha onu sübut edir ki, Azərbaycan Prezidenti rəhbəri olduğu ölkə bölgənin təhlükəsizliyi, sabitliyi və inkişafı üçün sülhə hazır olmaqla bərabər, həm də sülhün təminatçısı kimi çıxış etmək iqtidarındadır. 2021-ci il iyunun 15-də imzalanan Şuşa Bəyannaməsi bunun təsdiqidir.

### "HEÇ BİR ÖLKƏ BİZİM İRADƏMİZƏ TƏSİR EDƏ BİLMƏZ VƏ BUNU ARTIQ HƏR KƏS BİLİR Kİ, AZƏRBAYCANLA HESABLAŞMAQ LAZIMDIR"

Prezident İlham Əliyev Zəngilan rayonunun Ağalı kəndində ictimaiyyətin nümayəndələri ilə görüşdə çıxışı zamanı bir daha bildirdi ki, müstəqilliyimizin möhkəmlənməsi istiqamətində çox böyük işlər görmüşük: "Siyasi cəhətdən tam müstəqilik. Heç bir ölkə bizim iradəmizə təsir edə bilməz və bunu artıq hər kəs bilir ki, Azərbaycanla hesablaşmaq lazımdır, Azərbaycanın mövqeyini nəzərə almaq lazımdır. Azərbaycan özünə hörmət edən dövlətdir və hər kəsdən bu hörməti tələb edir və bunu əldə edir". Azərbaycanın iqtisadi cəhətdən müstəqil ölkə olduğunu vurğulayan dövlətimizin başçısı bildirib: "Bu gün iqtisadi cəhətdən müstəqil ölkələrin sayı o qədər də çox deyil. Bunu yaxın tarix göstərir. Ancaq biz tam müstəqilik, heç kimdən asılı deyilik, öz həyatımızı özümüz qururuq və heç bir yardıma, kreditə ehtiyacımız yoxdur. Əksinə, biz özümüz indi bəzi ölkələrə kreditlər veririk. Məhz iqtisadi müstəqillik nəticəsində bu gün, bax, bu Ağalı kəndi deyə bilərəm ki, dünyanın ən mütərəqqi kəndlərinin birinə çevrilib. Bunu biz etmişik, öz gücümüzlə və azad edilmiş bütün digər torpaqlarda öz gücümüzlə bərpa işlərini aparırıq və indi nəhəng layihələr icra edilir. Bu haqda Azərbaycan xalqı müntəzəm olaraq məlumatlandırılır".

### "POSTMÜNAQİŞƏ GÜNDƏLİYİNİN FORMALAŞMASINDA AZƏRBAYCAN ÖZ SÖZÜNÜ DEYİR VƏ BU SÖZ HƏLLEDİCİDİR"

"Bu gün postmünaqişə gündəliyinin formalaşmasında Azərbaycan öz sözünü deyir və bu söz həlledicidir. Amma bununla bərabər, biz heç bir qeyri-real tələb də irəli sürmürük",-deyən Prezident İlham Əliyev onu da vurğulayıb ki, ərazi bütövlüyümüzü tanıyın, gəlin sərhədləri müəyyən edək, hərə öz ölkəsində yaşasın, bir-birinin işinə qarışmasın: "Biz bunu deyirik və mənim tərəfimdən irəli sürülmüş sülh müqaviləsi üçün 5 əsas prinsipin mahiyyəti də budur. O cümlədən bir-birinə qarşı ərazi iddialarından əl çəkmək prinsipi də böyük önəm daşıyır və Ermənistan rəhbərliyi bu 5 prinsipi qəbul edib. İndi nə isə əlavə etmək istəyir, amma əsas fundamental prinsiplər budur". Dövlətimizin başçısı ermənilərin Azərbaycanda, o cümlədən Qarabağ bölgəsində yaşaması məsələsinə toxunaraq vurğulayıb ki, burada heç bir problem yoxdur: "Azərbaycan çoxmillətli, çoxkonfessiyalı bir ölkədir. Azərbaycanda bütün xalqların nümayəndələri rahat yaşayırlar, bütün hüquqlardan istifadə edirlər. Heç vaxt Azərbaycanda milli, dini zəmində ayrı-seçkilik olmayıb və olmayacaq. Ona görə Azərbaycanda yaşayan ermənilərin hüquqları, təhlükəsizliyi Azərbaycanda yaşayan digər xalqların təhlükəsizliyi, hüquqları qədər önəmlidir. Burada hansısa xüsusi imtiyazdan söhbət gedə bilməz".Belə olan halda, ermənilər anlamalıdırlar ki, sülh onların yeganə çıxış yoludur. Bu gün mövcud şəraitdə Ermənistan ciddi miqrasiya problemləri yaşayır. Demoqrafik böhran yaşayan ölkə həm də işçi qüvvəsi, istehsal qüvvəsi, müdafiə qüvvəsi çatışmazlığı ilə üzləşəcək. Deməli, erməni toplumu savaş yox, sülh imkanları axtaracaq. İqtisadi amillər yeni münasibətlərin formalaşmasına səbəb olacaq. Bu isə o deməkdir ki, bir neçə ildən sonra Şuşa ilə Xankəndinin inkişaf səviyyəsində ciddi fərqlər aydın görünəcək.

### AVROPA İTTİFAQI AZƏRBAYCANIN MÜƏYYƏNLƏŞDİRDİYİ GÜNDƏLİYİ, REALLIQLARI QƏBUL EDİR

Bir neçə gün əvvəl Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin Azərbaycan Prezidenti İlham Əliyevə zəng etməsi respublikamızın Cənubi Qafqazda söz sahibi və lider dövlət olmasından xəbər verir. Belə ki, Şarl Mişel Cənubi Qafqazda sabitlik, sülh və təhlükəsizliyin təmin olunmasını məhz dövlət başçımızla müzakirə edib, onunla məsləhətləşib. Həmçinin, Avropa İttifaqı Şurasının prezidentinin təşəbbüsü ilə Belçikanın paytaxtı Brüsseldə keçirilən üçtərəfli görüşdə də Cənubi Qafqazda sülh və əməkdaşlıq məsələləri müzakirə olunmuşdu. Çünki, Azərbaycan Prezidenti İlham Əliyev regionda yeni reallıqların müəllifidir və postmünaqişə mərhələsinin ümumi geosiyasi mühitinin formalaşmasında əsas söz sahibidir və mövcud regional geosiyasi vəziyyəti obyektiv qiymətləndirir. O cümlədən regional əməkdaşlıq, sabitlik və inkişaf üçün vacib təşəbbüslər göstərir. Azərbaycan Ermənistanla sülh sazişi imzalanmasının, sərhədlərin müəyyənləşdirilməsinin, regionda kommunikasiya xətlərinin, həmçinin Zəngəzur dəhlizinin açılmasının tərəfdarıdır. Bütün bunların fonunda Brüssel görüşü və onun nəticələri böyük önəm kəsb edir. Bu baxımdan Brüsseldə keçirilmiş üçtərəfli görüşün nəticəsi olaraq Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin səsləndirdiyi Bəyanatda da məhz Azərbaycanın bu mövqeyi öz əksini tapır. Ən əsası isə, Şarl Mişelin bəyanatında "Dağlıq Qarabağ" ifadəsinin işlədilməməsi, ATƏT-in Minsk qrupunun adının çəkilməməsi o deməkdir ki, Avropa İttifaqı Azərbaycanın müəyyənləşdirdiyi gündəliyi, reallıqları qəbul edir. Və Şarl Mişel danışıq zamanı rəhbərlik etdiyi təşkilatın bundan sonra da Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsinin imzalanması, sərhədlərin delimitasiyası və nəqliyyat-kommunikasiya xətlərinin açılması istiqamətində səylərini davam etdirəcəyini bildirib.

### "DƏMİR YUMRUQ" YERİNDƏDİR, BUNU HEÇ KİM UNUTMASIN"

Və bu gün havadarlarına arxalanaraq ölkəmizdə təxribatlarından əl çəkmirlər. Ancaq növbəti müharibə ilə "hədələyən" revanşistlər anlamırlar ki, artıq Azərbaycan bütün gedişləri kökündən dəyişib və bölgədə baş verən istənilən hadisəyə diqqət yetirir, hər şeyə nəzarət edir. İndi diktəni edən ölkə Azərbaycandır və bölgədə yenidən erməni faşizminin baş qaldırmasına heç vaxt imkan verməz. İstənilən qüvvənin Qarabağda Azərbaycan əsgərinə qarşı edəcəyi təxribat xarakterli əməl cavabsız qalmayacaq. Və bu gün Ali Baş Komandanın bəyanatlarına, sərt xəbərdarlıqlarına əhəmiyyət verməyən ermənilər indi qalib sərkərdənin hər bir fikrini, mesajını diqqətlə izləyir və ona uyğun nəticə çıxarırlar. Yaxşı anlayırlar ki, Prezident İlham Əliyevin dediyi söz imzası qədər keçərlidir. Müharibənin gedişatında hər kəs, bütün Ermənistan buna şahidlik edib. Və Ali Baş Komandan həmçinin, Ermənistandakı revanşist qüvvələrə də xəbərdarlıq edib: Əgər Ermənistan sərhədlərin müəyyən edilməsi işində yenə də öz köhnə taktikasına qapılsa, vaxt uzatmağa çalışsa, nəticədə özü peşman olacaq. Biz Ermənistanda baş qaldıran revanşist qüvvələrin hərəkətlərinə diqqətlə baxırıq. Onlar da bunu bilsinlər. Bax, o dağın başında mənim sözlərim yazılıb: "Dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın!".Bəli, Azərbaycan regionda söz sahibidir, müharibənin taleyini müəyyənləşdirdiyi kimi, sülh prosesinin mətnini də özü yazır, Ermənistan istəsə də, istəməsə də. Və Ermənistanın düşdükləri böhrandan yeganə çıxış yolu isə məntiqlə günü-gündən güclənən, qalib Azərbaycanın irəli sürdüyü tələbləri qəbul etməkdir. Əks halda ""Dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın!".

**RƏFİQƏ HÜSEYNOVA**

***Son vaxtlar müharibənin yenidən başlayacağı barədə Ermənistan cəmiyyətində spekulyasiyalar bu ölkənin gündəmini zəbt edib. İşğalçı ölkənin mətbuat səhifələrində belə Qarabağda müharibənin yenidən başlayacağı barədə anonslar verilir və bunun da həmin ölkədə hansı gərginliyə səbəb olduğu da sirr deyil. Sülh danışıqları, sərhədlərin delimitasiyası və demarkasiyası gözlənildiyi halda, Qarabağda müharibə başlayacağı barədə fikirlərin səslənməsi Ermənistanın yenə də məsələlərə aqressiv yanaşmasından xəbər verir.***

# Yenidən MÜHARİBƏ GÖZLƏNİLİRMİ?



Ermənistan tərəfi indi də Laçın dəhlizinə alternativ dəhlizin tikintisi ərəfəsində bir sıra prosesləri əngəlləmək üçün müxtəlif bəhanələr axtarır. Məqsəd bütün dünyanın diqqətini yenə də cəlb etmək və özlərinə havadar hesab etdikləri dövlətlərin proseslərə müdaxiləsinə nail olmaqdır. Hələ də 10 noyabr bəyannaməsinin bir sıra bəndləri Ermənistan tərəfindən yerinə yetirilmir. Əvəzində isə diqqəti yenidən müharibə başlayacağına yönəldərək vəziyyəti kəskinləşdirmək niyyəti güdülür. Yenidən müharibə başlayacağı barədə söz-zöhbətlər də məhz süni şəkildə yayılır ki, sözügedən bəyannamənin tələblərinin icrası yubadılsın. Məsələ burasındadır ki, belə hiyləgərliklə nə proseslərin gedişinə, nə sərhədlərin delimitasiya və demarkasiyasına, nə də sülh sazişinə mane ola bilməzlər, çünki artıq ortalıqda sənəd var və həmin sənəddən irəli gələn tələblərin icrası da mütləqdir.

Əlbəttə ki, Qarabağda müharibənin başlayacağı barədə verilən anonslar, yayılan söz-söhbətlər qətiyyən həqiqətə, reallığa uyğun deyil. Artıq Dağlıq Qarabaq problemi deyilən bir məsələ yoxdur və Azərbaycan tərəfi bu barədə dəfələrlə bəyan edib. Torpaqlarımız işğaldan azad olunub, beynəlxalq hüququn norma və prinsplərinə uyğun olaraq Azərbaycan öz haqlarını, ərazi bütövlüyünü bərpa edib və ümuniyyətlə, tarixi ədalət bərpa edilib. Bunu da bütün dünya ictimaiyyəti bilir və qəbul edirsə, yenidən hansısa müharibəyə başlamaq gülünc səslənir. Sözsüz ki, Azərbaycan antiterror əməliyyatları apara bilər, öz ərazilərində hansısa separatçı qrup baş qaldırdığı halda bunun qarşısını ala bilər və ölkəmizin haqqı, hüququdur. Lakin bu, yenidən müharibə başlayacağı demək deyil və bir daha müharibənin başlamayacağı barədə qəti şəkildə söz söyləmək üçün əsaslı səbəblər var.

Əvvəla, Azərbaycan tərəfi bölgədə yenidən müharibənin olmasını qətiyyən istəmir və işğaldan azad olunmuş ərazilərdə quruculuq-abadlıq işlərinin həyata keçirilməsi bunu əyani şəkildə təsdiq edir. Əgər ölkəmizin yenidən müharibəyə başlamaq niyyəti olsaydı, yaxud belə bir müharibənin başlaya biləcəyi gözlənilsəydi işğaldan azad olunan ərazilərdə əsaslı işlər, quruculuq işləri aparılmazdı. Ümumiyyətlə, hansısa müharibə səbəbindən dağıdıla biləcək infrastruktur heç bir dövlət tərəfindən yenidən bərpa edilməz və bu fakt özü onu göstərir ki, yenidən müharibə başlayacağı anonsu cəfəngiyyatdır və buna məhəl qoyan da yoxdur. Azərbaycan tərəfi artıq işğaldan azad etdiyi əraziləri abadlaşdırmaqla məşğuldur və bunu da bütün dünya ictimaiyyəti görür. Görür ki, əsrin üçdə birinə yaxın zaman fasiləsində, yəni erməni işğalı altında olduğu müddətdə dağıdılan ərazilər məhz bizim tərəfimizdən bərpa edilir və artıq tam əmin olur ki, torpaqların həqiqi sahibi də Azərbaycandır.

Doğrudur, dəmir yumruq öz yerindədir və Ali Baş Komandan, cənab Prezident İlham Əliyev bu barədə dəfələrlə Ermənistan tərəfinə mesajlar verərək, xatırlatmalar edib. Xatırladılıb ki, istənilən vaxt həmin yumruq yenə də separatçıların, işğalçılıq niyyətində olanların başlarına endirilə bilər və Azərbaycan buna hər an hazırdır. Amma ermənilərin belə bir addımı atmağa nə gücləri qalıb, nə də cəsarətləri. Yaratdıqları miflər də cəmi 44 gün ərzində Ali Baş Komandanın müdrikliyi, siyasi iradəsi və rəhbərliyi ilə, eləcə də Azərbaycan Ordusunun şücaəti və xalqımızın birliyi, həmrəyliyi ilə darmadağın edilib. İndi Ermənistan tərəfinin, separatçıların hansısa iddiada olması sadəcə gülünc səslənir və uzaq başı elə iddia olaraq da qala bilər.

Ermənistanın savaşa başlamaq, müharibə etmək üçün heç bir hərbi gücü, hərbi texnikası, hansısa resursu və ümumiyyətlə, potensialı yoxdur. Cəmi 44 gün ərzində işğalçı ölkənin bütün ehtiyatları tükəndi.



Ermənistan tərəfi, ermənilər hansı hərbi texnika ilə müharibəyə başlaya bilər? Bəlkə döyüşmək üçün yetərincə hərbçisi var? Əlbəttə ki, yox dərəcəsindədir. Əgər Ermənistan bütün arsenalı ilə, bütün hərbi kontingenti ilə müharibədə cəmi 44 günə uduzdusa, təslimiyyət aktına imza atdısa, deməli indi döyüşməyə taqəti belə qalmayıb və yenə də dərhal rüsvayçı məğlubiyyətlə qarşılaşacağını hamıdan yaxşı ermənilər özləri bilirlər. Üstəlik, ermənilər artıq çoxdandır ki, Qarabağ ərazilərində döyüşməyə qəti şəkildə narazılıqlarını öz hakimiyyətlərinə bildiriblər. Elə isə kimin döyüşəcəyini düşünə bilərlər və dediklərinə özləri belə inanırlarmı? Sözsüz ki, inanmırlar və yenidən müharibə başlayacağı barədə fikirlər quru sözdən başqa bir şey deyil.

Bəlkə də düşünülə bilər ki, ermənilər hansısa xarici dövlətin yardımına güvənir və müharibə dedikdə də buna arxalanır. Məsələ burasındadır ki, Ermənistanın hər zaman güvəndiyi Rusiya özü müharibə edir və nə hərbçisini, nə də hərbi texnikasını, silah-sursatını Ermənistanla bölüşmək fikrində ola bilməz. Onsuz da sanksiyalara məruz qalan və bu səbəbdən müəyyən sıxıntılar yaşayan Rusiya Ermənistana heç maddi yardım belə göstərmək halında deyil. Haylar bilməlidirlər və bilirlər də ki, Qərb belə onlara yardım etmək hayında deyil və başı Rusiya-Ukrayna müharibəsinə qarışıb. Bu müharibə ümumilikdə bütün dünyanın diqqətini cəlb edib və indi Ermənistan deyilən kiçik və heç birinə faydası olmayan bir dövlət maraq dairəsində ola bilməz. Bir tərəfdən də Rusiya-Ukrayna müharibəsinin dünya iqtisadiyyatına vurduğu ziyan da təkzib edilə bilməz. Doğrudur, bu ziyan hələ dəqiq hesablanmayıb, amma hər halda dövlətləri, eləcə də hər kəsi belə iqtisadi böhran kimi bir qlobal məsələ daha çox maraqlandırır, nəinki Ermənistanın qondarma məsələləri. Bir sözlə, Ermənistanın hansısa dövlətə, hansısa havadara güvənmək kimi bir şansı belə qalmayıb. Elə isə müharibədən, qisas dedikləri, yaxud "revanş" adlandırdıqları cəfəngiyyata kimsə inanan deyil və özlərini də boş yerə aldadırlar.

Sözsüz ki, koronavirus pandemiyası da dünya iqtisadiyyatına əhəmiyyətli dərəcədə mənfi təsir göstərib. Məhz bu qlobal bəla səbəbindən dünya iqtisadiyyatı yetərincə zərərlə qarşılaşıb. Ölkələr hələ hansı durumda olduqlarını, maliyyə resurslarının, iqtisadiyyatın nə vəziyyətdə olduğunu götür-qoy etməlidirlər. Hər bir ölkə pandemiyanın vurduğu zərərin qarşısının alınmasını ən vacib addım hesab edir. Dünyada ərzaq qıtlığı deyilən bir təhlükə var. Ümumiyyətlə, ərzaq, enerji təhlükəsizliyi kimi problemlər yetərincədir və bu əsnada Ermənistanın ərköyün davranışlarına dözmək, cəfəng iddialarına zaman belə sərf etmək kimi hansısa dövlətin fikri yoxdur. Sadalanan qlobal problemlər indi dövlətləri, bütövlükdə dünyanı yetərincə məşğul edib və heç bir təbii ehtiyatı, enerji ehtiyatarı olmayan bir çırtdan dövlət, yəni Ermənistan haqqında düşünən tapılmaz. Bu zamana qədər bütün Ermənistanı maliyyələşdirən erməni lobbisi də, ermənipərəst güclər belə beziblər və onların da bundan sonra hansısa istiqamətdə yardım etmələri ağlasığan deyil. Bu isə o deməkdir ki, Ermənistanın sığınacağı hansısa dövlət və hansısa güc, yaxud qurum belə yoxdur və bu vəziyyətdə müharibə həmin ölkənin tamamilə məhv olması deməkdir.

Nəticə göz önündədir və bütün bunlar yenidən müharibə başlayacağının, yaxud müharibə gözləntilərinin belə yalan olduğunu isbatlayır. Əlbəttə ki, Ermənistan yenə də əsas məsələdən yayınmaq üçün hiyləgərliyə əl atır, amma bunun da mənasız olduğu hamıya bəllidir. O da bəllidir ki, yenidən müharibənin olub-olmayacağı nəticəni dəyişə bilməz. Azərbaycan qalib ölkədir, öz ərazi bütövlüyünü, hüquqlarını və tarixi ədaləti bərpa edib, özü də öz gücü hesabına və bu güc də, potensial da zərrə qədər azalmayıb, əksinə daha da artmaqdadır. Bir sözlə, artıq təslimçilik sənədinə imza atan Ermənistanın müharibə barədə düşünməyə belə halı yoxdur və hətta 10 noyabr bəyannaməsindən irəli gələn tələbləri yerinə yetirməkdən başqa çarəsi də qalmayıb.

***İnam Hacıyev***



# "Gələcəyimizə sahib çıxaq - Narkotiklərə yox deyək!" adlı mədəni-kütləvi tədbir keçirilib





Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 iyul tarixli, 1334 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın icrası ilə əlaqədar, Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun və "Azərbaycan Televiziyası və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin 2022-ci il ilə dair birgə imzalanmış Tədbirlər Planı çərçivəsində iyul ayının 6-da Rəşid Behbudov adına Mahnı Teatrında dövlət qurumlarının, incəsənət nümayəndələrinin, partiya fəallarının iştirakı ilə "Gələcəyimizə sahib çıxaq - Narkotiklərə yox deyək!" adlı mədəni-kütləvi tədbir keçirilib.





Tədbirdə çıxış edən YAP Mərkəzi Aparatının Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin müdir müavini Məhəmməd Məhərrəmov, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun rəhbərinin müavini Tanrıverdi Aydınov və başqaları bildiriblər ki, narkomanlıq müasir dövrdə bütün bəşəriyyəti narahat edən ən ciddi sosial problemdir. Ümumbəşəri bəla olan narkomaniyanın sərhəd tanımadan yayılması ölkəmiz üçün həlli vacib məsələlərdən birinə çevrildiyindən, dövlətimiz bütün qüvvə və imkanlarını səfərbər edərək, bu bəlanın kökünün kəsilməsi istiqamətində aparılan beynəlxalq mübarizəyə qoşulmuş, zəruri qanunvericilik bazası yaradılmış və institusional islahatlar həyata keçirilmişdir. Azərbaycanın dövlət siyasətində başlıca vəzifə olan, sağlam nəslin formalaşması istiqamətində həyata keçirilən tədbirlər sırasında mühüm istiqamət kimi diqqət yetirilən narkomaniya ilə mübarizə kampaniya xarakterli deyil, davamlı siyasətdir.

Bugünkü tədbirin də əsas məqsədi sağlam gələcəyimizin təmin olunmasıdır. Qeyd edilib ki, bu məsələdə hər kəs barışmaz mövqe tutmalı və ümumbəşəri bəlaya qarşı qətiyyətli mübarizə aparmalıdır. Sevindirici haldır ki, bu gün hər bir dövlət orqanı və qurumu, həmçinin müvafiq təşkilatlar üzərinə düşən vəzifələri tələb edilən səviyyədə yerinə yetirməklə qarşıya qoyulan məqsədlərə tam nail olmağa töhfələr verməyə çalışırlar ki, bu da təbii olaraq müsbət nəticələrini göstərməkdədir.

YAP Mərkəzi Aparatı, Səbail rayon təşkilatı və "Azərbaycan Televiziyası və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin birgə təşkilatçılığı ilə baş tutan tədbir incəsənət nümayəndələrinin və "Cəngi" estrada folklor ansamblının təqdimatında konsert proqramı ilə davam etdirilib.







# Mətbuatımızın durumu hansı səviyyədədir?



***1875-ci ilin 22 iyulunda görkəmli maarifçi, təbiətşünas alim, publisist, mütəfəkkir Həsən bəy Zərdabinin əsasını qoyduğu "Əkinçi" qəzeti ilə xalqımızın milli oyanışında yeni səhifə açılıb.***

Vətənpərvər ziyalı Həsən bəy Zərdabi böyük əzab-əziyyətdən sonra ana dilində ilk qəzetin çapına müvəffəq olmuşdu. 1875-ci ilin 22 iyul tarixindən 1877-ci ilin 29 sentyabr tarixinə qədər çapını davam etdirən "Əkinçi" ayda iki dəfə 300-400 tirajla nəşr edilib. Bu müddət ərzində qəzetin 56 nömrəsi işıq üzü görüb. Bəs, bu gün mətbuatımızın durumu hansı səviyyədədir? SİA mövzu ilə bağlı media nümayəndələrinin fikirlərini öyrənib.

**Jurnalist Həmkarlar İttifaqının sədri, Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli:** "Azərbaycan mediası, həmişə olduğu kimi, yenə də özünün uğurlu fəaliyyətini davam etdirir. Mediamız Azərbaycan ictimaiyyətinin, cəmiyyətinin keyfiyyətli informasiya ilə təmin olunması funksiyasını uğurla yerinə yetirir. Yaşadığımız dövr yeni media dövrüdür. Media texnoloji baxımdan inkişaf dövrü keçir və buna uyğun olaraq özünün nəzəri yanaşmasını yeni dövrün tələblərinə uyğunlaşdırır.

Yaxşı haldır ki, 2022-ci ilin fevral ayında cənab Prezident Azərbaycanda Media Haqqında Yeni Qanun imzaladı. Bu qanun yeni media dövrünə adaptasiya olunan Azərbaycan mediasının hüquqi statusunu və təşkilatı formasını müəyyən edir. Həmçinin, jurnalistikanın statusunun müəyyənləşməsi üçün kifayət qədər töhfələr vermiş olur. Bu qanunvericiliyin qüvvəyə minməsindən sonra Azərbaycanda jurnalistlərin və media subyektlərinin missiyası, cəmiyyətdəki rolu və statusu barədə kifayət qədər aydın təsəvvür formalaşır və media da buna uyğunlaşır.

Azərbaycan mediasının yeni dövrə uyğunlaşması üçün dövlətimiz yeni proqramlar da icra edir. Media İnkişaf Agentliyi vasitəsilə KİV subyektlərinə təkmilləşmə üçün maliyyə dəstəyi göstərilir. Bu dəstək 50-dən yuxarı KİV-ə göstərilir ki, onlar da öz fəaliyyətlərini yeni dövrün tələblərinə uyğun qurmaq, inkişaf etmək və cəmiyyəti lazım olan informasiya ilə təmin etmək üçün bu vəsaitdən istifadə edirlər.

Azərbaycanda həm ənənəvi, həm də sosial media inkişaf edir. Əsas odur ki, ölkəmizdə media mühiti normaldır. Yəni, medianın qanunvericilik bazası, təhlükəsizlik normaları, etik standartlar və s. liberaldır. Buna uyğun olaraq Azərbaycan mediası həm kəmiyyət, həm də keyfiyyət baxımından inkişaf edir.

Azərbaycanda informasiya təminatına ictimai rəyin sabit tutulmasına baxsaq və bu ictimai rəyin sabit tutulmasında medianın rolunun olduğunu nəzərə alsaq, Azərbaycan mediası öz üzərinə düşən missiyanı uğurla davam etdirir. Dövlətimiz medianın təkmilləşməsi, yaşaması və keyfiyyətli informasiya istehsal etməsi üçün ona lazımi dəstək və qayğını göstərir".

**"Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev:** "Azərbaycan mətbuatı yeni qanun normativləri üstündə strukturlaşmaq və institutlaşmağın yeni mərhələsindədir. Bilirik ki, yeni qanun qəbul olunub. Dövlətin və medianın münasibətlərini tənzimləyən və dövlət siyasətində əslində medianın lobbiçiliyini edən yeni dövlət qurumu olan Media İnkişaf Agentliyi yaradılıb və artıq işlər həyata keçirilir.

Ölkəmizdə media siyasətinin mühüm istiqamətlərindən biri olan medianın dövlət tərəfindən maliyyələşdirilməsinin yeni institutları və yeni qaydaları tətbiq olunub. Əgər 2009-2010-cu illərdən başlayan medianın maliyyələşdirilməsi prosesi yalnız çap medianı əhatə edirdisə, bu gün onlayn medianın da legitim və şəffaf qaydada maliyyələşdirilməsi bizim media siyasətimizin mühüm uğurlarından biri kimi qəbul oluna bilər. Mediamızın bu gün öhdəsində çoxlu resurslar var. Bunlar milli jurnalistikanın fəaliyyət ənənələri və milli jurnalistika dəyərlərinin formalaşdırılmasıdır. Bütün hallarda hər bir jurnalist onun qələminin kökündə Həsən bəy Zərdabinin ruhunun dayandığını heç vaxt unutmur ki, bu da bizim milli mətbuat ənənələrimizin formalaşmasına öz müsbət təsirini göstərir.

Jurnalistlərin və media orqanlarının mütləq çoxluğu yüksək peşə qaydalarının mənimsənilməsinin vacib olduğu qədər dövlətçilik və vətənpərvərlik normativlərinin də vacib olduğu lazımi səviyyədə anlayır. Azərbaycan jurnalistləri və media orqanları yaxşı bir haldır ki, həm peşəkarlığın, həm də dövlətçilik və vətənpərvərlik normalarının vacib olduğuna yüksək dəyər verirlər. Hətta bəzi hallarda Azərbaycan mediası və jurnalistlər dövlətçilik, vətənpərvərlik normalarını və fəaliyyət üsulları peşəkarlıqdan və peşə maraqlarından üstün tuturlar. Belə demək mümkündürsə, bu gün Azərbaycan mediası və



jurnalistlər dövlət vətənpərvərlik mənafelərinə peşəkar səviyyədə və peşəkar üsullarla xidmət göstərməyi bacarır. Əlbəttə, neqativlər də mövcuddur. Yəni, peşəkar milli mediamızın prinsipləri ilə ayaqlaşmaq istəməyən, bundan uzaqda öz peşə mənafelərini və peşə maraqlarını reallaşdırmağa cəhd göstərənlər də var. Amma nisbət götürəndə əlbəttə, Azərbaycan mediasında və jurnalistikada müsbət təmayüllər daha çoxdur nəinki neqativlər.

Milli mediamızın bu gün bir inkişaf dinamika mərhələsində olduğunu görürük. Medianın İnkişaf Agentliyi xətti ilə həm medianın maliyyələşdirilməsinin, həm inkişaf istiqamətlərinin müəyyənləşdirilməsinin, həm də neqativ tendensiyalardan sığortalanması üçün müəyyən layihələrin icrası əlbəttə əhəmiyyətlidir. Çox ciddi və hələ də həll olunmalı məsələlərdən biri xüsusilə də çap medianın inkişafına hərtərəfli qayğının və diqqətin göstərilməsidir. Xüsusilə də çap medianın reklam bazarına açılması hazırkı şəraitdə bizim gözlədiyimiz medianın mənafelərinin tələb etdiyi, amma hələlik tam şəkildə yerinə yetməmiş bir problemdir.

Biz başa düşürük ki, kommersiya strukturları, iş adamları daha çox öz mallarını reklam etmək və pul qazanmaq haqqında düşünürlər. Bu günlərdə Medianın İnkişaf Agentliyinin departament rəhbəri Natiq müəllimin bir çıxışını gördüm, çox xoşuma gəldi. Orada çap medianın üzünə reklam bazarının açılması və iş adamlarının, biznes strukturlarının çap medianın inkişafı naminə xeyriyyəçilik fəaliyyətlərinin açılmasının labüdlüyü qeyd olunurdu. Bu, çox vacib məsələdir. Yəni, iş adamları əgər başqa sahələrdə reklamlara həm də özlərinin xidmət və mallarının satılması, gəlir götürülməsi üsulu kimi baxırlarsa gərək çap medianın inkişafı üçün xeyriyyəçiliyin, həqiqətdə xeyriyyəçilik olduğunu da anlasınlar və bilsinlər ki, çap medianın inkişafı bu gün onlara birbaşa qəpikquruş formasında gəlir verməsə də amma bizim üçün milli və dövlətçilik məsələsidir. Ona görə ki, dövlətimizin, cəmiyyətimizin bu gün sivilizasiyanın ən mühüm nailiyyətlərindən biri olan çap mediaya, qəzetlərə, jurnallara ehtiyacı var. Dünyanın heç bir ölkəsi bundan imtina etməyibsə, Azərbaycanın da bundan imtina etməsi düzgün olmazdı və əksinə onun inkişafı üçün gərəkən hər şey edilməlidir. Bir sözlə çap medianın üzünə reklam bazarının tam şəkildə açılması bu gün həlli vacib olan məsələdir.

Ancaq onu da qeyd edim ki, bu təkcə çap medianın özündən və dövlət orqanlarından asılı deyil. Burada daha çox şey məhz biznes strukturlarından, iş adamlarından və onların çap medianın inkişafı naminə messenatlıq potensialının nə qədər parlaq və qabarıq olmağından asılıdır. Onlar bir növ çap medianın fəaliyyəti üçün özlərindən asılı olan fədakarlıq payını əsirgəməməlidirlər".

***Ayşən Vəli***

## "Aİ Azərbaycanın ərazi bütövlüyünü tanıyan bir qurumdur"



"Avropa İttifaqı Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsinin imzalanması, sərhədlərin delimitasiyası və nəqliyyat-kommunikasiya xətlərinin açılması istiqamətində vasitəçilik missiyasını həyata keçirən ən neytral və etibarlı tərəfdaşdır". Bu sözləri SİA-ya açıqlamasında siyasi ekspert Vüqar Əhmədov deyib.

Onun sözlərinə görə, məhz Avropa İttifaqının vasitəçiliyi ilə iki dövlətin başçıları arasında keçirilən görüşlərdə real nəticələr və irəliləyiş əldə olundu, sərhədlərin delimitasiyası ilə bağlı hər iki tərəfdə hökumət komissiyaları yaranaraq işə başladılar: "Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünü tanıyan bir qurumdur, açıqlamalarında Qarabağdakı ermənilərin status məsələsinə heç zaman yer verməyib, baxmayaraq ki, ermənilər buna çox çalışırlar. Ona görə düşünürəm ki, Avropa İttifaqının vasitəçiliyi ilə bizim danışıqları davam etdirməyimiz və əməkdaşlığımız ölkəmizin maraqlarına uyğundur. Avropa İttifaqının vasitəçiliyi ilə Ermənistanın baş naziri və Azərbaycan prezidenti arasında artıq üç görüş keçirilmişdir. Bu sözsüz ki, nəticəyə çatmaqda bizə kömək edə bilər. Digər tərəfdən Aİ-nin Ermənistana da təzyiq mexanizmləri mövcuddur. Aİ bu il Ermənistana geniş maliyyə yardımı paketi ayırıb. Digər vasitəçilərlə müqayisədə Avropa İttifaqının bölgədə sülh quruculuğu, etimad mühiti və insanlar-arası əlaqələri inkişaf etdirmək, iqtisadi və kommunikasiya layihələri üçün geniş maliyyə alətləri mövcuddur. Bu baxımdan arzu olunandır ki, Ermənistanla Azərbaycan arasında hər hansı irəliləyiş əldə olacaqsa, bu məhz Avropa İttifaqının vasitəçiliyi ilə baş versin. Hər iki icmada və cəmiyyətdə buna müəyyən ümidlər var, eyni zamanda bunu qısqanan və həzm edə bilməyən qüvvələr də təəssüf ki, mövcuddur".

***Arzu Qurbanlı***

# Təpəbaşının dağıdılmasına dünya niyə göz yumur?

**2020-ci ilin 27 sentyabr tarixindən etibarən Ermənistan ordusunun təxribatlarına qarşı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə başlayan genişmiqyaslı Vətən müharibəsi qələbəmizlə başa çatdı. Cənab Prezident çıxışlarını birində "44 günlük müharibə Azərbaycan torpaqlarının 30 il davam edən və bir milyondan çox azərbaycanlının iztirabına, şəhər və kəndlərimizin tamamilə dağıdılmasına gətirib çıxaran işğalına son qoydu", - deyərək bildirib: "Bütün şəhərlər, bütün kəndlər, tarixi və dini məkanlar, məscidlər, qəbiristanlıqlar dağıdılıb. Bu, islamofobiyanın, Azərbaycanofobiyanın, vandalizmin təzahürüdür. Çünki dəfələrlə dediyim kimi, bizim şəhərlərimiz Birinci Qarabağ müharibəsi ərzində deyil, sonradan işğal dövründə dağıdılıb. Bu, bütün Azərbaycan və İslam irsini Azərbaycanın bu tarixi torpaqlarından silmək və həmin torpaqların mənşəyini dəyişdirmək üçün qəsdən yürüdülən siyasət idi".**

İşğaldan azad olunmuş qədim tarixi torpaqlarımızda Ermənistanın hərbi birləşmələri yaşayış yerlərini, insan məskənlərini, eləcə də milli mədəniyyət, dini abidələrimizi qəddarcasına dağıdıblar. Erməni terrorçuları tərəfindən 30 ilə yaxın işğalda qalan ərazilərimizdə 13 dünya əhəmiyyətli - 6 memarlıq və 7 arxeoloji, 292 ölkə, 330 yerli əhəmiyyətli memarlıq, arxeoloji, bağ, park, monumental və xatirə abidələri, sənət nümunələri qalmışdı. Həmçinin bu ərazilərdə 40 mindən artıq əşyanın toplandığı 22 muzey, yüzlərlə mədəni-maarif müəssisələri də düşmən tapdağı idi. Maddi-mədəniyyət abidələrinin zənginliyi ilə seçilən Qarabağ bölgəsinin Ermənistan tərəfindən işğalı nəticəsində İslam mədəniyyətinə aid olan bütün abidələr dağıdılıb. Xarici İşlər Nazirliyinin hazırladığı "Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş ərazilərində İslam dininə aid tarixi və mədəni irsin məhv edilməsi" və "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı davam edən təcavüzü nəticəsində Azərbaycanın tarixi və mədəni irsinin dağıdılması və təhqir olunması" adlı hesabatlar hazırlanaraq UNESCO başda olmaqla, BMT, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, ISESCO-ya, digər beynəlxalq təşkilatlara təqdim edilib. İşğal altındakı torpaqlarımızda təqribən 403 tarixi dini abidə olub ki, onlardan 67-i məscid, 144-ü məbəd, 192-i ziyarətgahdır.





Qarabağ və ətraf rayonların ərazilərində rəsmi fəaliyyət göstərmiş 67 müsəlman məscidinin 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. Yalnız beynəlxalq təşkilatların təzyiqləri nəticəsində Ağdam Cümə məscidini, Şuşa şəhərindəki Aşağı Gövhərağa, Yuxarı Gövhərağa və Saatlı məscidlərinin divarlarını salamat saxlamaq mümkün olub. Ermənilər daha bir əxlaqsızlıq nümayiş etdirərək, Ağdam Cümə məscidinin içərisində ev heyvanları, o cümlədən donuz saxlamaqla öz iyrənc simalarını göstəriblər.

### UNESCO-NUN BAŞ DİREKTORU ODRE AZULEYƏ MÜRACİƏT ÜNVANLANIB

Bu gün İrəvan şəhərində olan Azərbaycan milli-mədəni, tarixi irsinin sonuncu qalığı Təpəbaşı məhəlləsinin taleyi də acınacaqlıdır. Ermənistanda Azərbaycan xalqının irsinin dağıdılması və tarixi izlərin silinməsi məqsədi ilə təcavüzkar siyasət davam etdirilir. İrəvan şəhərinin, o cümlədən Təpəbaşı hissəsinin tarixi, şəhərdə yüz il əvvəl başlanmış və hələ də davam edən Azərbaycan irsinin sistemli dağıdılması prosesi həyata keçirilir. Artıq Təpəbaşı məhəlləsinin son qalıqlarının da sökülərək, məhəllənin tamamilə məhv edilməsi təhlükəsi barədə məlumatlar əldə olunub. Qeyd edək ki, Təpəbaşı qədim İrəvan şəhərinin tarixi məhəllələrindən biri olub, hazırkı İrəvan şəhərinin də tarixi nüvəsini təşkil edir.

Ermənilər tərəfindən aparılan, 100 ildən çox davam edən və sistemli xarakter daşıyan söküntü proseslərinə baxmayaraq, onun son qalıqları günümüzə qədər gəlib çıxıb. Tarixi abidələrlə zəngin, görkəmli azərbaycanlıların yaşadığı bu məhəllənin müasir zamanda müqəddəratı ilə bağlı ciddi narahatlıq var. Əlbəttə ki, belə bir abidənin Təpəbaşının məhv edilməsinin qarşısının alınmasına dünya ictimaiyyətinin göz yumması yolverilməzdir. Xüsusi ilə UNESCO tərəfindən etinasızlıq göstərilməməlidir. Bu, dünya mədəni irsinin bir hissəsidir. İrəvan, o cümlədən şəhərin Təpəbaşı məhəlləsində yerləşən Azərbaycan xalqının milli-mədəni, tarixi irsinə qarşı Ermənistanın həyata keçirdiyi mədəni soyqırımı prosesi ilə bağlı Azərbaycanın bir qrup elm xadimi və ictimaiyyət nümayəndələri tərəfindən UNESCO-nun Baş direktoru Odre Azuleyə müraciət ünvanlanıb.

### ERMƏNİ VANDALLIĞI UNESCO-NUN "ÜMUMDÜNYA MƏDƏNİ VƏ TƏBİİ İRSİN QORUNMASI HAQQINDA" KONVENSİYASINA ZİDDİR

Qubadlı rayonunun azad edilmiş Məmər kəndindəki məscidin qəsdən dağıdılması və talan edilməsi, tarixin mənimsənilməsi və saxtalaşdırılması da təcavüz siyasətin bariz sübutudur. İşğal olunmuş ərazilərdə əsrlərboyu qalmış dini-mədəni irslərdən sui-istifadə beynəlxalq qanunların və konvensiyaların, o cümlədən "Silahlı Münaqişələr zamanı Mədəni Mülkiyyətin Qorunmasına dair 1954-cü il Haaqa Konvensiyası"nın və 1954, 1999-cu il protokollarının açıq şəkildə pozulmasıdır. Erməni təcavüzkarları tərəfindən Azərbaycan Respublikasında İslama aid tarixi və mədəni irsin tamamilə məhv edilməsi barbarlığın, vandallığın nümunəsidir.

Ermənilərin bu əməli "Arxeoloji irsin qorunması haqqında" 1992-ci il tarixli Avropa Konvensiyası və "Silahlı münaqişələr zamanı mədəniyyət abidələrinin qorunması haqqında" Avropa Konvensiyasına tam ziddir. Onların etdikləri "Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyası, UNESCO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" 1972-ci il Konvensiyası ilə də ziddiyyət təşkil edir.

Tarixi ədaləti bərpa edən Azərbaycan 30 ilə yaxın işğalda qalan əraziləri erməni təcavüzkarlarından azad etdikdən sonra abadlıq-quruculuq işlərinə başlayıb. Cənab Prezident çıxışlarını birində "Gün gələcək biz Şuşa şəhərində erməni vandalları tərəfindən dağıdılmış məscidlərimizi bərpa edəcəyik". Azərbaycan işğaldan azad olunan bütün ərazilərimizdə olan tarixi, dini abidələrimizi məscidləri tikəcək, yenidən bərpa edəcəkdir. Artıq bir neçə abidlərin təmir və bərpası işləri davam etdirilir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Azərbaycan xalqının tarixi irsi YUNESKO-nun gözü qarşısında dağıdılır"

"Ermənistan adlandırılan tarixi Azərbaycan torpaqlarında minilliklər boyu yaşamış azərbaycanlılar zaman-zaman buradan vəhşicəsinə qovulub, milli-mənəvi irsimiz, tarixi-memarlıq abidələrimiz məhv edilib və bu gün də bu barbar fəaliyyət davam etdirilir. Həmin siyasətin nəticəsində Ermənistan azərbaycanlıların artıq yaşamadığı monoetnik ərazidir. Ermənistan hakimiyyəti indi tarixi keçmişi, olan-qalan izləri silməklə məşğuldur. Belə fəaliyyətdə başlıca məqsəd ərazinin tarixi, etnomədəni mənsubiyyətini itirmək və Ermənistanı erməniləşdirməkdir". Bu sözləri S?A-ya açıqlamasında Milli Məclisin deputatı, AMEA-nın müxbir üzvü Musa Qasımlı deyib.

Onun sözlərinə görə, bu məhvetmə prosesi bir neçə mərhələdə baş verib və müxtəlif üsullarla həyata keçirilib: "İlk mərhələ ermənilərin çar Rusiyası tərəfindən azərbaycanlılara məxsus torpaqlara köçürülüb yerləşdirilməsindən 1918-ci ilədək davam edib. Bu mərhələdə dövlətləri olmadığı üçün erməni terror-siyasi təşkilatları qarışıq zamanlarda azərbaycanlılara məxsus tarixi abidələri, məscidləri, mədrəsələri dağıdıblar, yandırıblar. İkinci mərhələ 1918-1920-ci illəri əhatə edir. Bu mərhələdə tarixi Azərbaycan torpağında daşnak Ermənistanı yaradılandan sonra tarix və mədəniyyət abidələrinin dağıdılması dövlət siyasətinə çevrilib. Yerli əhali olan azərbaycanlılar zorakılıqla yaşayış yerlərindən qovulub, sonra tarixi abidələri, qəbiristanlıqları, dini inanc yerləri dağıdılıb. Üçüncü mərhələ 1920-1991-ci illəri əhatə edir. Bu mərhələdə Ermənistanda hakimiyyətə gələn bolşeviklər daşnak siyasətini davam etdiriblər.

Ermənistan SSR-də azərbaycanlılara məxsus tarix və mədəniyyət abidələrinin məhvi bir neçə üsulla həyata keçirilib: həmin tarix və mədəniyyət abidələrinin bərpasından ötrü Ermənistan SSR-in dövlət büdcəsindən vəsaitlər ayrılamayıb və baxımsızlıqdan dağılıb; xarici ölkələrdən ermənilərin gətirilərək yerləşdirilməsindən ötrü azərbaycanlılar deportasiya ediliblər. Gəlmə ermənilər gəldikləri ərazilərdə onlara məxsus olmayan tarix və mədəniyyət abidələrini dağıdıblar. Azərbaycanlılar məxsus yaşayış yerlərinin adları Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin qərarları ilə dəyişdirilib. Dördüncü mərhələ 1991-ci ildən sonradır. Bu mərhələdə Ermənistan Respublikası həm daşnak Ermənistanının, həm də Ermənistan SSR-in barbar siyasətini davam etdirib. Həmin siyasət bir neçə üsulla həyata keçirilib. Onlardan biri siyasi məqsədlər naminə Göy məscidin fars məscidi kimi təqdim edilməsidir. Amma məlum olduğu kimi ki, İslam dinində məscid ümmətindir və etnik mənsubiyyətlə müəyyənləşdirilmir. Məscidi Azərbaycan hökmdarları tikdirib. İkincisi, Ermənistan hakimiyyəti yeni tikinti işlərinin aparılması adı altında azərbaycanlıların əsasını qoyduğu İrəvanın tarixi hissəsini, o cümlədən onların yaşadıqları Təpəbaşıdakı tarix və memarlıq abidələrini dağıdır. Görülən işlərin yeni şəhərsalma ilə heç bir əlaqəsi yoxdur. Yuxarıda qeyd edildiyi kimi, başlıca məqsəd ərazinin azərbaycanlılara məxsus olduğunu göstərən tarixi, etno-mədəni izlərini itirib süni surətdə erməniləşdirməkdir.

Belə bir sual yaranır ki, Ermənistanda azərbaycanlılara məxsus olan tarix və mədəniyyət abidələrinin məhv edilməsi təkcə Azərbaycanı deyil, bütün mədəni dünyanı narahat etməlidirmi? Cavab aydındır: bəli! Çünki Ermənistan hakimiyyətinin törətdikləri siyasi və hüquqi məsuliyyət yaradır. Beynəlxalq konvensiyaları pozan Ermənistanın siyasəti tarixi-memarlıq irsə qarşı vəhşiliyin nümunəsi olduğundan siyasi və hüquqi qiymətini də almalıdır. Ancaq gerçək vəziyyət necədir? Gerçəklik odur ki, dünya mədəniyyəti yaradan Azərbaycan xalqının tarixi irsi YUNESKO-nun gözü qarşısında dağıdılır. YUNESKO isə susur, qulaqları kar, dili lal, gözləri kordur. Təşkilatın belə davranışını Ermənistanın işğalı altında olan ərazilərimizdə dağıdılmış abidələrimizə münasibətdə artıq görmüşük. Deməli, YUNESKO kimsəyə dərs vermək üçün mənəvi haqqını itirib. Əslində ermənilərin dağıtdığı abidələrə biganə qaldıqca bu təşkilat da özünü mədəni dünyanın gözündə dağıdır və qəbirə qoyur".

***Arzu Qurbanlı***

# DİASPOR NÜMAYƏNDƏLƏRİ: “Vətənə xidmət etmək şərəfli bir işdir”

***Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşlarının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalayıb. SİA sərəncamla bağlı diaspor nümayəndələrinin fikirlərini öyrənib.***



**“Diaspor Press” informasiya mərkəzinin rəhbəri, diaspor işləri üzrə ekspert Toğrul Allahverdili:** ”Diasporla İş üzrə Dövlət Komitəsinin yaranmasının 20-ci ildönümündə cənab Prezident tərəfindən komitə əməkdaşlarının və komitə sədrinin təltif edilməsi diaspor sahəsində çalışan əməkdaşlara və komitə sədrinə verilən ən yüksək qiymətin bariz nümunəsidir. Çünki həm 44 günlük Vətən müharibəsində, həm Tovuz hadisələri dövründə, həm də son 3 illik fəaliyyətə baxdıqda Diasporla İş üzrə Dövlət Komitəsinin uğurlu fəaliyyətini hər bir nöqtədə görmək olar. Bunu həm Avropadakı diaspor təşkilatlarımızın fəaliyyətinin koordinasiya olunmasında, həm digər ölkələrdə, həm də Türkiyə diasporası ilə Azərbaycan diasporunun xaricdə birgə fəaliyyətinin qurulması istiqamətində görmək olur. Təbii ki, bunu ölkə rəhbərliyi görür.

Komitənin 20 illiyi münasibətilə komitə sədri Fuad Muradovun 3-cü dərəcəli ”Vətənə xidmət medalı” ilə təltif olunması zənnimcə çox böyük etimaddır. Çünki bir məmur və bir vətəndaş üçün Vətənə xidmətdən böyük bir şərəf ola bilməz. Fuad Muradovun fəaliyyətinə gəlsək, o, Azərbaycanın ən gənc millət vəkillərindən olub. Zatən o gənc yaşlarından gənclər sektorunda olub və fəaliyyəti də hər zaman təqdirəlayiq bir fəaliyyət olub. Bu gün də 3 ildən çox müddətdir ki, komitə sədridir və komitədəki fəaliyyəti isə tək diaspor nümayəndələri tərəfindən deyil, eləcə də ölkə rəhbərliyi tərəfindən təqdir olunması tək Fuad Muradova deyil, onun timsalında bu sahə ilə əlaqəsi olan, bu sahəyə həyatını həsr etmiş xaricdə, bütün dünyada yaşayan azərbaycanlılara verilmiş qiymətin bariz nümunəsidir. Çünki Fuad Muradov xaricdə yaşayan azərbaycanlıları koordinasiya edən bir qurumun rəhbəridirsə, bu qurumun rəhbəri ”Vətənə xidmət medalı” alırsa bu dünya azərbaycanlılarına verilmiş qiymətdir. Digər komitə əməkdaşlarının ”Tərəqqi medalı” ilə təltif edilməsi isə zənnimcə çox yerində olan bir hadisə oldu.

Mən də fürsətdən istifadə edib bu sahə ilə yaxından-uzaqdan əlaqəsi olan bir şəxs kimi ölkə başçısına minnətdarlığımı bildirirəm. Çünki mən komitənin fəaliyyətini ən yaxından izləyən şəxslərdən biriyəm. Vətəndaş Cəmiyyətinin nümayəndəsi olaraq qeyri-hökumət təşkilatı, media nümayəndəsi olaraq mənim ən çox izlədiyim sahələrdən biri diaspor sahəsidir ki, mən bu komitənin fəaliyyətinin son 3 ildə - həm pandemiya dövründə, həm Vətən savaşında alınan sonrakı dövrlərdə şahidiyəm. Ona görə də komitə əməkdaşlarının təltif edilməsini Azərbaycan diasporuna, xaricdə yaşayan soydaşlarımıza verilmiş bir dəyər kimi qiymətləndirirəm. Çünki hər bir ödül insanları daha da stimullaşdırır, onlara daha da güc, qüvvət verir və təbii ki, məmur qarşısında böyük bir məsuliyyət, yeni bir yol xəritəsi qoyur. Düşünürəm ki, bundan sonra da komitə əməkdaşları durmadan çalışacaqlar ki, Azərbaycan diasporu inkişaf eləsin.

Azərbaycan diasporunun ən böyük uğurlarından biri Şuşada Dünya Azərbaycanlılarının 5-ci Qurultayının keçirilməsi idi. Yəni, bu hər bir azərbaycanlının arzusu, hər bir azərbaycanlı üçün qürur idi və bu günə şükürlər olsun ki, müzəffər Ali Baş Komandan cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu Şuşanı azad etdi və Azərbaycan diaspor nümayəndələrinin təmsilçiləri Diasporla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Şuşada Dünya Azərbaycanlılarının qurultayını keçirdi. Biz artıq xoşbəxt bir diasporanın təmsilçiləri, nümayəndələriyik və düşünürəm ki, artıq Azərbaycan diasporu özünün çiçəklənmə dövrünü keçib.

Bir daha komitənin bütün əməkdaşlarını bir-bir təbrik edirəm, hər birinə çətin, lakin şərəfli işlərində uğurlar arzu edirəm. Çünki Vətənə xidmət etmək şərəfli bir işdir. Diaspora sahəsində çalışan, Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşları hər biri şərəfli işin, şərəfli peşənin daşıyıcılarıdır və tək komitənin əməkdaşlarını deyil, dünyanın bütün nöqtələrində yaşayan soydaşlarımızı diaspor bayramı münasibəti ilə təbrik edirəm. Bu bayram bizim bayramımızdır. Çünki Diasporla İş üzrə Dövlət Komitəsinin yaranması günü Azərbaycan diasporunda bir bayram əhval-ruhiyyəsi yaradan bir gündür. Xaricdə yaşayan bütün soydaşlarımızı təbrik edirəm. Onları arxa cəbhənin qəhrəmanları adlandırıram. Bayramınız mübarək olsun. Onlara arxa cəbhənin qəhrəmanları deyirəm. Ümidvaram ki, bu ödüllər, bu təltiflər, bu medallar davamlı olacaq, gələcək illərdə də komitənin digər əməkdaşları ölkə rəhbərliyimiz tərəfindən, müzəffər Ali Baş Komandan tərəfindən təltif ediləcəklər. Digər günlərdə də xaricdə yaşayan soydaşlarımız təltif edilirlər, artıq belə bir ənənə var. Bir daha fürsətdən istifadə edib hər kəsi təbrik edirəm. Yaşasın güclü Azərbaycan diasporu deyirəm”.





**İctimai Siyasi Proseslər Beynəlxalq Araşdırmalar Mərkəzinin sədri (İSBAM) Samir Adıgözəlli:** ”Diasporun fəaliyyəti Vətəndən kənarda yaşayan soydaşlarımızın təşkilatlanması baxımından mühüm hadisələrdən biridir. Bu böyük bir müddətdir və burada keşməkeşli yollar olsa da, biz müstəqilliyimizi bərpa etdikdən sonra xaricdə yaşayan soydaşlarımızın ilk cücərtisi olan təşkilatlar, 1990-cı illərdə yaranan cəmiyyətlərimiz var idi ki, onların koordinasiya olunması baxımından belə bir dövlət sturukturunun formalaşması vacib məsələ idi.

Bilirsiniz ki, Dünya Azərbaycanlılarının dəfələrlə qurultayları keçirilib və həmin qurultaylarda cənab Prezidentin proqram xarakterli çıxışları olub. Prezidentin bu yaxınlarda etdiyi təltiflər bütövlükdə Azərbaycan diasporuna verilmiş qiymətdir. Çünki 44 günlük Vətən müharibəsində də ümumilikdə bütün azərbaycanlılar səfərbər oldu. Dəmir yumruq hər kəsi bir araya topladı. Cənab Prezidentin idarəsi xalqımızı bir araya gətirdi. Bu birlikdə bizim xaricdə yaşayan soydaşlarımızın da rolu və fəaliyyəti var. Onlar da Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında xidmət etdiblər. Məncə, cənab Prezidentin bu addımı yüksək qiymətləndirilməli və hər kəs bu məsuliyyəti dərk etməlidir. Bu ali mükafatı dəyərləndirmək lazımdır”.

**”Samara Vilayəti Azərbaycanlıları Liqası” İdarə Heyətinin sədri, Vilayət İctimai Palatasının üzvü Şirvan Kərimov:** ”Cənab Prezidentin Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşlarının mükafatlandırılması haqqında sərəncamını çox yüksək qiymətləndirirəm. Çünki uzun müddətdir Diaspora Komitəsi ilə əməkdaşlıq edirik. Komitənin işçiləri bizim həm dostlarımız, həm yoldaşlarımız, həm də Fuad Muradovun dili ilə desək qohumlarımızdır. Fuad müəllim Diaspora Komitəsinə sədr seçildikdən sonra, komitənin ümumiyyətlə diasporalarla, xaricdə yaşayan soydaşlarımızla əməkdaşlıq üsulu tamamilə fərqlidir. Bu aydın məsələdir ki, Diaspor Komitəsi cənab Prezidentin xarici siyasətinin tərkib hissəsi olan diasporla iş üzrə dövlət siyasətini həyata keçirir. Amma buna baxmayaraq Diaspora Komitəsinin əsas əməkdaşlıq etdiyi insanların hamısı ictimai xadimlər və təşkilatlardır. Ona görə də dövlət və ictimaiyyət arasında münasibət quran və bu münasibətə uzun müddət xidmət edən insanlar təltif olunmalıdır. Çünki illər boyu Diasporla İş üzrə Dövlət Komitəsinin təqdimatı ilə diaspor fəaliyyəti ilə məşğul olaraq xaricdə yaşayan yüzlərlə həmvətənlərimiz medalla təltif olunub. Ona görə də çox xoş haldır ki, artıq Diaspora Komitəsinin öz əməkdaşları təltif olunur. Onlar hamısı bu mükafatlara layiqdirlər.

Biz həmişə Diaspor Komitəsinin dəstəyini görürük. Xüsusən də son illərdə pandemiya ilə bağlı komitənin işçiləri xaricdə yaşayan həmvətənlərimizə öz dəstəklərini veriblər. Mənə elə gəlir ki, bundan sonra da onlar daha yüksək orden lərlə təltif olunacaqlar. Başda Fuad Muradov olmaqla, bütün mükafat alan dostlarımızı təbrik edir, onlara gələcək fəaliyyətlərində uğurlar arzu edirəm”.

**Niderland Belçika Azərbaycanlıları Koordinasiya Şurasının Niderland üzrə əlaqələndiricisi, ”Ana Vətən” Avropa Azərbaycanlı Qadınlar Birliyinin sədri Mayisə Ağamirzəyeva:** ”Azərbaycan Respublikasının Diaspora İş Üzrə Dövlət Komitəsinin yaranmasından 20 il ötür. 2003-cü ildən etibarən Hollandiyada yaşayan bir azərbaycanlı kimi 2007-ci ildən, 2011-ci ildən isə daha da aktiv şəkildə diaspora fəaliyyəti ilə məşğulam. Əlimdən gəldiyi, bacardığım qədər Vətənim naminə addımlar




atmağa çalışıram. Bütün bu illər ərzində səbrli əməkdaşları ilə seçilən doğma Diaspora Komitəsinin işini yüksək qiymətləndirirəm. Yaranması Ulu Öndərin adı ilə bağlı olan doğma Komitə ötən illər ərzində enişli-çıxışlı yollardan keçərək daim özünü doğruldub. Xüsusən də son illər ərzində dünya azərbaycanlılarının aktivliyi diqqəti cəlb edir. Bir çox soydaşlarımızın yaşadıqları ölkələrdəki fəaliyyəti işıq üzünə çıxarılıb, tanınıblar. Məgər ziyalımız, nə çox ürəyi Vətənlə döyünən gənclərimiz var imiş dünyanın dörd bir tərəfində birləşmək məqsədilə yaradılan Koordinasiya Şuraları, Azərbaycan Evləri, həftəsonu məktəbləri, gənclərdən ibarət müxtəlif platformalar və onlarca yeni yaranan diaspor hərəkatları Komitənin son illərdəki uğurlu fəaliyyətinin nəticəsidir.

Xüsusən də 44 günlük Vətən müharibəsində biz xaricdə yaşayan azərbaycanlıların ayağa qalxması, müxtəlif ölkələrdə yaşasaq da birləşməyimiz, sosial media üzərindən mübarizəmiz, bütün bunlar bizi birləşdirən Diaspora Komitəsinin fəallığından irəli gəlir. Pandemiya vaxtında, Ukrayna müharibəsi dövründə azərbaycanlıların təxliyə olunmasında, ”YAŞAT” Fondu Marafonundakı göstərdikləri fədakarlıqlar komitənin səbrli və işguzar əməkdaşlarının səyi nəticəsində olub”.

***Ayşən Vəli***

SORĞU

***Azərbaycanın bənzərsiz, möcüzəli, bəzən saatlarla qarşısında heyrət içərisində qaldığımız inanılmaz təbii gözəlliyə, yerlə göy arasına sığınan füsunkar coğrafi mövqeyə malik olan üç rayonu - Laçın, Şuşa, Kəlbəcər... Sanki Yaradan bu yerləri yaradarkən ilahi qüvvəsini, bütün gücünü ortaya qoymuş, sübut etmişdir ki, mən nələrə qadirəm. Dünyanın hansı gözəlliyinə bu üç rayonda rast gələ bilməzsən ki?.. Onların hər üçündə ayrı-ayrı coğrafi zənginlik, təbii füsun cəmlənib. Dəniz səviyyəsindən yüzlərlə metr yüksəklərə doğru bir Laçın, bir Şuşa, bir Kəlbəcər var.***

# Laçın, Şuşa, Kəlbəcər üçbucağı



Təhlil+Yanaşma

Göz baxdıqca uzanan dərələri, zirvəsi səmalarla öpüşən dağları, çılpaqlığından par-par parıldayan yalçın qayaları, aşağıdan yuxarıya doğru yüzlərlə metr məsafədə dolanbac yolları, bəzən üzərindəki səmanı əvəz edən dumanı-çəni, yalnız özünəməxsus gülü-çiçəyi, meşəsi, çəməni, çayı, bulağı ilə bir nağıldımı, əfsanədimi bu yerlər, bilmirəm, amma bizimdir. 30 ildi yad əllərdə idi, lakin artıq doğmasındadır... Bu üç rayonun gözəllikləri fonunda təbiət özü onları bir üçbucağa sığdırmışdısa, tarixi Zəfərimizdən sonra bu torpaqlara yenidən qayıdışımızla və coğrafiyasına görə dövlətimizin başçısı mümkünsüzü mümkün etməklə Laçın, Şuşa, Kəlbəcər üçbucağını yaradır.

## Laçın Beynəlxalq Hava Limanı Laçın şəhərinə 30, Şuşaya 70, Kəlbəcərə 60 kilometrlə üçbucaq yaradır

Laçın, Şuşa, Kəlbəcər üçbucağı... Bu üçbucağı Laçın Beynəlxalq Hava Limanı yaradır. Çünki bu hava limanı vasitəsilə bu üç rayona asanlıqla, rahat şəkildə gedib-gəlmək mümkün olacaq və hava limanı bu rayonların turizm qapılarını açmaqla onları bu yerlərə üz tutanlara birgə təqdim edəcəkdir. Bu hava limanından ayrılan üç şaxə ilə 30, 70 və 60 kilometr çərçivəsində bir üçbucaq yaranacaq ki, illər sonra bu üç zənginliyin faydasından bütün ölkə bəhrələnəcəkdir. Həm strateji, həm iqtisaqdi, həm logistik cəhətdən hava limanının böyük əhəmiyyəti zaman-zaman görəcəyik.

Ötən ilin avqust ayında Prezident İlham Əliyev Laçın Beynəlxalq Hava Limanının təməlini qoyarkən Laçına həqiqətən də yeni həyat bəxş edəcək bu liman barədə deyirdi: "Mən hesab edirəm ki, dünya tarixində belə relyefdə bəlkə də ilk dəfə hava limanı tikilir. Çünki bütün hava limanları adətən düzən ərazidə inşa edilmişdir. Burada belə yer olmadığı üçün yeganə yer bura - Laçın rayonunun Qorçu kəndi seçilib. Bu yerin üstünlüyü, eyni zamanda, ondadır ki, Laçın şəhərinə məsafə 30 kilometrdən bir qədər çox, Kəlbəcər şəhərinə məsafə isə 60 kilometrdən bir qədər çoxdur. Eyni zamanda, Şuşa şəhərinə məsafə də 70 kilometrə yaxındır. Yəni, gələcəkdə Şuşaya təyyarə ilə getmək üçün həm Füzuli, həm də Laçın hava limanlarından istifadə etmək mümkün olacaq".

Bəli, elə Laçın, Şuşa, Kəlbəcər üçbucağının da təməli həmin gün qoyuldu. Bu üç coğrafiyanın məsafələri bir hava limanı ilə yaxınlaşdırıldı. Bir üçbucaqla üç tirurizm qapısı açıldı, üç əlverişli torpaqları olan rayonumuzun dünyaya çıxışı təmin edildi. Mümkünsüzü mümkün etməyin yolu möcüzələrin hər an baş verə biləcəyini təsdiq etdi. Prezident İlham Əliyevin ötən ayın 26-da Kəlbəcərdə "İstisu" sanatoriyasının təməlqoyma mərasimində Laçın hava limanı haqqında dediyi kimi: Laçın rayonunda yeni hava limanı inşa edilir. Bu hava limanının tikintisinin ən çətin tərəfi Laçın rayonunda və Kəlbəcər rayonunda düz yerin olmamasıdır. Ona görə biz dağları yarırıq, dağları kəsirik ki, zolaq üçün uyğun şərait yaradılsın. Ona görə bu torpaq işləri hələ gələn il də davam edəcək. Ümid edirəm ki, 2024-cü ildə Laçın rayonunda beynəlxalq hava limanı açılacaq və ondan sonra gediş-gəliş daha rahat olacaq. Əminəm ki, bu bölgə turizm zonası olacaq. Çünki burada olan təbii gözəllik heç bir yerdə yoxdur. Təbii gözəllik - çaylar, bulaqlar, meşələr - biz bütün bu sərvətdən məhrum idik, ermənilər bizim xalqımızı məhrum etmişdilər. Otuz il ərzində bizim təbii sərvətlərimizi istismar edir, ağaclarımızı kəsirdilər, - 60 min hektar ağac fondu, meşə fondu məhv edilib, - çaylarımızı zəhərləyir, binalarımızı sökür, qızıl yataqlarımızı qanunsuz istismar edirdilər. Hər şeyi qanunsuz edirdilər. Bu gün erməni vəhşiliyi haqqında dünyada kifayət qədər böyük məlumat var və biz bu məlumatı daha da genişləndirəcəyik.

Həmin gün dövlətimizin başçısı Laçın Beynəlxalq Hava Limanında aparılan tikinti işləri ilə tanış olarkən görülən işlər barədə məlumatda bildirilirdi ki, təməli 2021-ci ildə qoyulan Laçın Beynəlxalq Hava Limanının tikintisinin 2024-cü ildə tamamlanması planlaşdırılır. Hava limanının uçuş zolağının uzunluğu 3000 metr, eni isə 60 metr olacaq. Laçın dağlıq bölgə olduğuna görə ərazinin planlaşdırılması işləri davam etdirilir. Aeroportun beynəlxalq standartlara uyğun olaraq layihələndirilən terminal binasının sahəsi 5000 kvadratmetrdir və saatda 200 sərnişinə xidmət edə biləcək. Aeroportun hava hərəkətini idarəetmə qülləsinin, transformator binalarının, nəzarət-buraxılış məntəqəsinin və digər yardımçı tikililərinin layihələndirilmə işləri də başa çatdırılıb.

Bəli, dövlətimizin başçısının da vurğuladığı kimi, bu, bir çoxları üçün gözlənilməz oldu: "Bəziləri bunu möcüzə hesab edirdilər. Çünki sovet dövründə heç vaxt bu bölgədə - Kəlbəcər-Laçın zonasında hava limanı olmayıb. Məhz bu səbəbə görə. Çünki çox bahalı bir layihə ola bilərdi və məqbul yer də tapmaq mümkün deyil. Ancaq biz bunu edirik. Müstəqil Azərbaycan dövləti buna da qadirdir. Buna texniki imkanlarımız da, maliyyə imkanlarımız da və güclü iradəmiz də var."

Laçın Beynəlxalq Hava Limanı bir yenilikdir. Laçını əldən vermək istəməyən ermənilər 2024-cü ildə istifadəyə verilməsi nəzərdə tutulan hava limanına enən və buradan səmaya qalxan təyyarələri gördükcə məğlubiyyətlərinin acısını bir daha yaşamalı olacaqlar.

## 30 il əvvəl... 30 il sonra...

Bu gündən dünənə, yəni 30 il əvvələ nəzər saldıqda torpaqlarımızın işğalı zamanı düşmənin bu üçbucağı nəzərə aldıqlarını da görmək olur. Çünki bu rayonların hər üçü coğrafi quruluşuna görə açar rolunu oynayırdı. Bir-biriləri ilə zəncirvari əlaqələri kəsmədən onları işğal etmək mümkün deyildi. Buna dövlətimizin başçısı çıxışlarının birində ətraflı açıqlamasını verir: Həyat göstərdi ki, biz güclü iradə, cəsarət göstərərək istədiyimizə nail ola bildik. Laçın rayonunu qaytarmaq fikirləri belə yox idi onların. Biz gəldiyim yolla gələrək, yol boyunca yerləşən bütün rayonları, kəndləri, şəhərləri azad edərək bax, buralara gəldik. Laçın rayonunun cənub hissəsini işğalçılardan azad etdik, Güləbird kəndini azad etdik. Burada Səfiyan və Türklər kəndləri yerləşir, onları da azad etdik və Laçın dəhlizinə nəzarət etmək üçün hərbi plasdarm yaratdıq və artıq Laçın dəhlizi atəşimiz altında idi. Faktiki olaraq bu istiqamətdən hərəkət edərək biz strateji əməliyyatlarımızı aparmışdıq. Eyni zamanda, əks tərəfdən - Xocavənd rayonundan Şuşa şəhərinə gedərək, dağlardan, dərələrdən keçərək uğurlu əməliyyat apara bilmişik. Laçın rayonunun bax, bu cənub hissəsi hərbi əməliyyat nəticəsində azad edilmişdir. Biz döyüş meydanında düşməni məğlub etdik və tarixi ədaləti bərpa etdik.

Laçın rayonu Şuşadan sonra işğala məruz qalmış ikinci rayondur. Laçın rayonunun işğal altına düşməsi faktiki olaraq Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaratmışdır. Halbuki sovet vaxtında bu bağlantı yox idi. 1992-ci il mayın 8-də Şuşanın işğalından 10 gün keçəndən sonra Laçın rayonu işğal altına düşdü. Bu, böyük faciə idi. Hər bir rayonun itirilməsi böyük faciə idi. İnsanlar həlak olub, insanların əmlakı dağıdılıb, insanlar öz dədə-baba torpaqlarından didərgin salınıb. Eyni zamanda, Laçın rayonunun işğal altına düşməsi strateji nöqteyi-nəzərdən çox böyük məğlubiyyətimiz idi. Laçın rayonunu satanlar, Şuşanı satanlar eyni adamlardır. Mən bunu demişəm. Bir daha demək istəyirəm ki, Azərbaycan xalqı bunu bilsin və heç vaxt unutmasın. AXC-Müsavat mənfur cütlüyü hakimiyyətə gəlmək üçün bu torpaqları düşmənə satıb. O vaxt hakimiyyəti yıxmaq üçün Bakıda mitinqlər təşkil edirdilər, çaxnaşma təşkil edirdilər, hakimiyyətə gəlmək üçün istənilən satqınlığa hazır idilər və bu satqınlığı etdilər. Şuşanı boşaltdılar. Halbuki onların nəzarəti altında qüvvələr var idi. Şuşa ermənilər oraya girəndə, faktiki olaraq, boş idi. Şuşanı heç kim müdafiə etmirdi. Sonra Laçın rayonunu da satdılar və ondan sonra heç bir ay keçməmiş hakimiyyətə gəldilər. AXC-Müsavat cütlüyü bu satqınlığı, bu xəyanəti edib, bu cinayəti törədib. 1993-cü ilin aprelində Kəlbəcər də işğal altına düşəndən sonra qorxaqcasına qaçıb gizlənib, fərarilik edib. Azərbaycan xalqı bunu heç vaxt unutmamalıdır, bu satqınları, bu xainləri, bu düşmənləri unutmamalıdır! Onlar satıblar bizim torpaqlarımızı. Biz qaytarmışıq bu torpaqları, qayıtmışıq. Bax, durmuşam burada - Laçın rayonunda. Bu torpaqları düşməndən azad edən Müzəffər Ordunun Ali Baş Komandanı kimi Azərbaycan bayrağını qaldırmışam və bu bayrağın altında Azərbaycan xalqına doğma Laçın diyarından müraciət edirəm. Bizim Qələbəmiz tarixi Qələbədir. Biz tarixi ədaləti bərpa etdik. Biz öz haqlarımızı bərpa etdik, biz şəhidlərimizin qanını aldıq, biz düşməndən qisas aldıq və qayıtmışıq. İndi isə bərpa işləri gedir və gedəcək. Mən demişəm, biz bu bölgəni - Qarabağı cənnətə çevirəcəyik. Artıq bütün göstərişlər verilib. Bütün işlər görülür, planlı şəkildə görüləcək və biz bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq. Heç kim bizi bundan sonra bu torpaqlardan tərpədə bilməz. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

## Azad Şuşa, azad Laçın, azad Kəlbəcər...

Bütün işğaldan azad edilən rayonlarımız kimi, bu rayonlarda da böyük quruculuq işləri həyata keçirilir ki, insanlar öz ata-baba yurdlarına rahat şəkildə qayıda bilsinlər. Axı bu torpaqlarda düşmən daşı daş üstündə qoymayıb. Tarixi, mədəni abidələr, məscidlər, sosial obyektlər kimi, bütün evlər, həyətlər dağıdılıb, vuran edilib, ərazilər minalanıb. Vətəndaşlarının sağlamlığının, rifahının daim qeydinə qalan dövlətimiz müharibədən dərhal sonra azad torpaqlarımızda bu işlərə ona görə başlayıb ki, bu yerlərin sakinləri yurdlarına dönə bilsinlər, orada yaxşı yaşamaları üçün hərtərəfli şəraitləri olsun. Yolların abdlaşdırılması, yeni yolların çəkilməsi, azad torpaqlarımızın elektrik enerjisi ilə təminatı, digər obyektlərin tikintisi hər biri ayrı-ayrılıqda Böyük Qayıdışa xidmət edən amillərdir. Laçın Baynəlxalq Hava Limanı isə azad edilmiş torpaqlarımızda görülən işlərin nəhəngliyindən xəbər verir. Görülən işlər həm də vətəndaşlarımızı tez bir zamanda yurd-yuvalarına qaytarmaqla bu əhazilərin resurslarını ortaya çıxarıb onların sahiblərinin daha da yaxşı yaşamasına yönəlmiş perspektiv planların paralel şəkildə aparıldığını sübut edır.

Laçın kimi, Şuşa, Kəlbəcər, eləcə də digər azad edilmiş rayonlarımızda həyata keçirilən tədbirlər onların yaxın gələcəkdə inkişafının bəhrələrindən xəbər verir. Prezident İlham Əliyevin dediyi kimi:Yəni, biz hərtərəfli iş görürük - həm infrastruktur işləri, xəstəxanalar, məktəblər, yaşayış binaları, mədəniyyət obyektləri, məscidlərimizin bərpası, muzeylər, hava limanları, dəmir yolları, tunellər. Cəmi bir il yarım ərzində görülən bütün işləri sadalamaq mümkün deyil. Bu, onu göstərir ki, biz bu torpaqların sahibləriyik. Bu torpaqlar 30 il ermənilərin əlində idi. Nə qoyub getdilər? Xarabaxana, viran qoyulmuş şəhərlər, kəndlər! Dəfələrlə demişəm, hər dəfə də bu dağıntıları görəndə bir daha deyəcəyəm: Elə bil ki, burada vəhşi qəbilə yaşayıb. Burada ondan da eybəcər işlər görülüb - ancaq dağıtmaq, sökmək, yandırmaq. Bu qədər nifrət, bu qədər qeyri-insani hərəkət, görəsən, haradan qaynaqlanır? Bunu gərək psixoloqlar, yaxud psixiatrlar bizə desinlər. Çünki normal adam bu əməllərə əl atmaz.

Bəli, ermənilərin torpaqlarımıza qarşı bu qədər nifrəti, qeyri-insani hərəkətləri acgöz, mənəvi yoxsulluqla dünyaya gəlmələrindən qaynaqlanır. Bir də Azərbaycanın sahib olduqlarına dözə bilməməkdən, gözü götürməməkdən... Hələ bu harasıdır, yağı düşmən. Haqqında danışdığımız Laçın, Şuşa, Kəlbəcər üçbucağı yaxın gələcəkdə gözünüzü kor edəcək. Başın üzərindən təyyarələr Laçın Baynəlxalq Hava Limanına enib qalxdıqca, turistlər bu abad yerlərə axın-axın gəldikcə, bu hava limanından Laçına, Şuşaya, Kəlbəcərə abad yollarla üz tutduqca, 30 il işğal altında saxladığın topraqları yurddaşları cənnətə çevirib bu cənnətin məhsullarını həmin hava limanı vasitəsilə dünya bazarına çıxardıqca qonşuluqda bağrın çatlayacaq. Çünki torpaqsızsan. Bütün bunlar doğma torpaqlar üzərində edilir. O doğma torpaqlar isə azad edilmişdir. Artıq onlar əbədiyyən bizim nəzarətimizdə olacaqdır. Bu ölkə, bu xalq, bu ordu o torpaqları göz bəbəyi kimi qoruyacaq. Çünki bizdə torpaq şərəfdir. Biz şərəfimizi qoruyuruq!

*Mətanət MƏMMƏDOVA*

# Azərbaycan - Gürcüstan münasibətləri: 30 ilin reallıqları

***İqtisadi, siyasi, sosial və s. sahələrdə qurulan əməkdaşlıq münasibətləri dövlətlər arasında qarşılıqlı anlaşmanın qurulmasına və davamlı olmasına təsirini göstərir. Mövcud münasibətlər çoxşaxəli, qarşılıqlı maraq əsasında qurulub, əməkdaşlıq əlaqələrinin inkişafına üstünlük verilib. Azərbaycan ilə Gürcüstan arasında əlaqələr də möhkəm təməllər üzərində qurulub. İki ölkə arasında bu günə qədər imzalanmış sənədlər əməkdaşlıq üçün yeni imkanlar açıb. İki ölkə arasında diplomatik əlaqələr - 30 il əvvəl 1992-ci ildə qurulub. 1995-ci ilin fevral ayında Bakıda Gürcüstan səfirliyinin, 1996-cı ilin mart ayında isə Tbilisidə Azərbaycan səfirliyinin açılışı ikitərəfli əlaqələrin inkişafına əlavə stimul verib.***



1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı iki xalq arasında münasibətlərin inkişafına yeni imkanlar açdı. Azərbaycanla Gürcüstan arasında yaxınlığın və əlaqələrin inkişafına böyük təkan verən ikitərəfli münasibətlər mükəmməl hüquqi bazaya malikdir. Bu münasibətlər həm siyasi, həm iqtisadi, həm də sosial-humanitar sahələri əhatə edir. Gürcüstan regionda Azərbaycanın ən yaxın müttəfiqlərindəndir.

Gürcüstanla Azərbaycanı hər şeydən əvvəl Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və TRASEKA kimi qlobal enerji, nəqliyyat-kommunikasiya layihələri birləşdirir. Bununla paralel olaraq, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qurumlar daxilində əməkdaşlıq ikitərəfli strateji əlaqələri daha da möhkəmləndirib. 1998-ci il sentyabrın 7-8-də keçirilmiş Tarixi Böyük İpək yolunun bərpası üzrə Beynəlxalq Konfrans keçirildi, 1998-ci il oktyabrın 7-də Azərbaycanın Gürcüstanla sərhədində yeni körpünün açılışı oldu, 1999-cu il aprelin 17-də isə Bakı-Supsa neft kəməri işə salındı. Ötən dövrdə hər iki ölkənin həyatında tarixi əhəmiyyətə malik olan Bakı-Tbilisi-Ceyhan neft ixrac kəmərinin tikintisi sahəsində intensiv işlər aparılıb.Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezident İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə bu münasibətlər daha da dərinləşmişdi. Nəhayət, 2005-ci il mayın 24-25-də neft kəmərinin Azərbaycan, oktyabrın 12-də isə Gürcüstan hissəsinin istifadəyə verilməsi mərasimi keçirildi.

### "BİRGƏ HƏYATA KEÇİRDİYİMİZ LAYİHƏLƏR HƏM ÖLKƏLƏRİMİZ, HƏM QİTƏ, HƏM DƏ DÜNYA ÜÇÜN ÖNƏMLİDİR"

Gürcüstan prezidenti xanım Salome Zurabişvilinin Azərbaycan səfəri də bu münasibətlərin möhkəmliyini bir daha təsdiq etmiş oldu. Onun regionda birinci səfərinin Azərbaycan olması qonşu və dost ölkə olduğuna əsaslanır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bildirdiyi kimi, biz əsrlər boyu mehriban qonşuluq şəraitində yaşamışıq və bu gün uğurla inkişaf edirik: "Bizim birgə həyata keçirdiyimiz layihələr həm ölkələrimiz, həm qitə, həm də dünya üçün önəmlidir. Yəni, biz çox uğurlu əməkdaşlıq formatı yarada bildik  Bunu bizim siyasi iradəmiz diktə edir. Əminəm ki, biz bütün məsələlərdə hər zaman bir-birimizin yanında olacağıq, bir-birimizə dəstək göstərəcəyik, necə ki, bu günə qədər bütün məsələlərdə həmişə bir yerdə olmuşuq". Gürcüstanla Azərbaycanı, hər şeydən əvvəl, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və TRASEKA kimi qlobal enerji, nəqliyyat-kommunikasiya layihələri birləşdirir. Bununla paralel olaraq, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qurumlar daxilində əməkdaşlıq ikitərəfli strateji əlaqələri daha da möhkəmləndirib. Regionda yeni mühüm bir layihəni ərsəyə gətirmək üçün iki dövlətin mövqeləri üst-üstə düşür. Təsadüfi deyil ki, Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstan və Azərbaycanın bütün sahələrdə çox uğurla əməkdaşlıq etdiyini və bu əməkdaşlığın böyük hissəsinin energetika sektoruna aid olduğunu bildirmişdi: "Bu əməkdaşlığın böyük tarixi var və biz birgə səylərlə çox önəmli böyük layihələri icra edə bilmişik. Əgər tarixə nəzər salsaq, görərik ki, hələ 1990-cı illərin sonlarında Bakı-Supsa neft kəmərinin tikintisi böyük hadisə idi. Bu, imkan verdi ki, Xəzər dənizi Qara dənizlə neft kəməri ilə birləşsin. Ondan sonra, əlbəttə ki, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri tikildi. Bütün bunları, biz, yəni üç ölkə - Azərbaycan, Gürcüstan və Türkiyə birgə səylərlə həyata keçirdik". Həyata keçirilən bu layihələr iqtisadi inkişafa böyük təsirini göstərməkdədir.

### GÜRCÜSTAN VƏ AZƏRBAYCAN ÇOXMİLLƏTLİ, ÇOXKONFESSİYALI ÖLKƏLƏRDİR

"Azərbaycanda yaşayan gürcülər və Gürcüstanda yaşayan azərbaycanlılar əlaqələrimizin inkişafı üçün çox önəmli rol oynayırlar" - deyən Cənab Prezident Gürcüstan və Azərbaycanın çoxmillətli, çoxkonfessiyalı ölkələr olduğunu vurğulayıb: "Bu, bizim böyük sərvətimizdir. Ölkələrimizdə yaşayan bütün xalqların nümayəndələri özlərini çox rahat hiss edirlər. Bu, ölkələrimizin bugünkü və gələcək inkişafı üçün çox önəmli amildir". Bütün sahələrdə uğurlu əlaqələr böyük layihələrin reallaşmasına səbəb olur və iki dövlət arasında olan dostluğun təməlini daha da möhkəmləndirir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: " bütün sahələr üzrə əməkdaşlığımızın çox böyük perspektivləri, ən əsası isə, güclü siyasi iradə var. Gürcüstan və Azərbaycan bundan sonra da bir-birini dəstəkləyəcək. Biz reallaşan layihələri bundan sonra da inkişaf etdirəcəyik və yeni layihələr haqqında düşünəcəyik". Bildiyimiz kimi, Azərbaycan-Gürcüstan dostluğunun çox qədim tarixi kökləri var. Əsrlər boyu qonşu olan Azərbaycan və gürcü xalqları arasında heç bir zaman ciddi problem, münaqişə olmayıb. Azərbaycan-Gürcüstan dostluğu Cənubi Qafqazda əməkdaşlığın və təhlükəsizliyin qarantına çevrilib. Gürcüstanda yaşayan azərbaycanlılar Gürcüstanın dövlətçiliyinə dəstək olmuşlar.

### BİRGƏ SƏYLƏR REGİONDA SABİTLİYİN, SÜLHÜN VƏ TƏHLÜKƏSİZLİYİN MÖHKƏMLƏNDİRİLMƏSİNƏ TÖHFƏLƏR VERİR

Bu əlaqələr bu gün uğurla davam etdirilir. Bildiyimiz kimi, Gürcüstan Prezidenti Salome Zurabişvili Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Gününün bərpası münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktub ünvanlamışdır. Azərbaycanın Gürcüstanın suverenliyinə və ərazi bütövlüyünə göstərdiyi davamlı dəstəyə görə bir daha minnətdarlığını bildirən Gürcüstan Prezidenti dövlətləri tarixi dostluq, mehriban qonşuluq münasibətləri, eləcə də sıx strateji tərəfdaşlıq birləşdirdiyini qeyd etmişdir. Məktubda o da qeyd olunub ki, birgə səylərimizlə əməkdaşlığımızı daha da yüksək səviyyəyə qaldıracaq, həmçinin regionda sabitliyin, sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi üçün bundan sonra da bir çox səmərəli addımlar atacağıq. Əlbəttə ki, bu münasibətlər qarşılıqlı etimada əsaslanır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstanın Prezidenti xanım Salome Zurabişviliyə Gürcüstanın milli bayramı - Müstəqillik Günü münasibətilə təbrik ünvanlamışdır. Məktubda qeyd olunur ki, Azərbaycan ilə Gürcüstan arasındakı münasibətlər tarixən dostluq və mehriban qonşuluq şəraitində yaşamaqla xalqlarımızın iradəsindən qaynaqlanır: "Belə möhkəm təməllərə əsaslanan dövlətlərarası münasibətlərimizin yüksək səviyyəsi məmnunluq doğurur.İnanıram ki, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız, qarşılıqlı etimad və dəstəyə əsaslanan strateji tərəfdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir". Göründüyü kimi, dövlətləri birləşdirən çoxtərəfli əlaqələr, eləcə də çoxəsrlik dostluq, qardaşlıq münasibətləri möhkəm təməl üzərindədir.

*Zümrüd BAYRAMOVA*

# "Xəzər dənizi regionu olduqca strateji əhəmiyyətə malikdir"

***"Xəzər dənizi regionu olduqca strateji əhəmiyyətə malikdir. Xəzəryanı dövlətlərin səmərəli əməkdaşlıq sisteminin mövcud olması bütün iştirakçı dövlətlərin maraqlarına cavab verir. Nəzərə almaq lazımdır ki, istənilən çoğrafiyada sülhün və təhlükəsizliyin davamlı olması hər şeydən öncə məhz əməkdaşlığın xarakterindən asılıdır. Bu baxımdan, Azərbaycan Respublikasının Prezidenti Aşqabadda keçirilmiş Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısında çıxışı zamanı bu məqamları ayrıca olaraq vurğuladı". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu bildirib.***



Onun sözlərinə görə, müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində xəzəryanı dövlətlərin ikitərəfli və çoxtərəfli əməkdaşlığının olduğunu vurğulayan Azərbaycan Prezidenti regionda sabitliyin və təhlükəsizliyin əsasında məhz bu amilin dayandığını qeyd etdi. Xəzərin hüquqi statusu məsələsi uzun illər mübahisə predmeti olaraq qalmaqda idi. 2018-ci ildə Aktau şəhərində Xəzərin hüquqi statusuna dair imzalanmış Konvensiya region dövlətləri arasında daha səmərəli qarşılıqlı fəaliyyətin və əməkdaşlığın yeni istiqamətlərini müəyyənləşdirəcək. Azərbaycan Prezidenti çıxışında xəzəryanı dövlətlər arasında əsas əməkdaşlıq istiqamətlkərini xatırladıb. Bu əməkdaşlıq istiqamətləri üzrə fəaliyyətin göstərilməsi üçün geniş normativ hüquqi sənədlər bazası mövcuddur. Konvensiyanın ratifikasiya edilməsi isə gələcəkdə imkanları daha da genişləndirəcək. Cənab İlham Əliyev xəzəryanı dövlətlərin əməkdaşlığının təşkili və genişləndirilməsi zamanı bərabərhüquqluluğun gözlənilməsinin prioritet olduğunu qeyd etməklə yanaşı, dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə, müstəqilliyinə hörmətlə yanaşılmasının vacibliyini nəzərə çatdırdı. Xəzərə dənizi müasir mərhələdə beynəlxalq nəqliyyat qovşağına çevrilməkdədir. Mövcud unikal nəqliyyat infrastrukturu dünya bazarlarına daha əlverişli çıxış imkanlarının məhz Xəzər dənizi vasitəsilə təmin olunması imkanları mövcuddur. Ən əsası isə, etibarlı və təhlükəsizlik investisiya mühitinin yaradılması bu istiqamətdə atılacaq vacib addımlardandır".

Deputat həmçinin qeyd edib ki, Xəzər dənizinin beynəlxalq nəqliyyat və logistika mərkəzinə çevrilməsi prosesində Azərbaycanın mühüm rol oynadığı və Tarnsxəzər beynəlxalq nəqliyyat marşrutunun səmərəli istifadəsi üçün ölkəmizin səyləri də Prezident İlham Əliyev tərəfindən diqqətə çatdırıldı: "Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin Azərbaycanın ərazisindən keçməsi ümumilikdə Xəzər regionunda nəqliyyat-logistika infrastrukturunun inkişafı istiqamətində ölkəmizin əhəmiyyətini ciddi şəkildə artırır. Aşqabadda yadda qalan mühüm məqamlardan biri də ondan ibarət oldu ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev Zəngəzur dəhlizini bir daha xatırladaraq, ölkəmizin atdığı addımların bütövlükdə beynəlxalq nəqliyyat əlaqələrinin inkişafı sahəsindəki roluna və təşəbbüslərinə bir daha diqqəti cəlb etmiş oldu. Azərbaycan Vətən müharibəsində tarixi qələbə qazanaraq, torpaqlarını işğaldan azad etdi. Hazırkı mərhələdə isə, Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması və bərpası istiqamətdə geinişmiqyaslı işlər getməkdədir. Ölkə Prezidenti tərəfindən bütün bu məqamlara toxunulması həm də postmünaqişə mərhələsinin yeni reallıqlarının xatırladılması kimi qiymətləndirilməlidir."

*Abutel İlhamqızı*

# Ermənilərin 7 faizlik ÜDM artımı...



*Ermənistan hakimiyyətinin vəd etdiyi 7 faizlik iqtisadi artım təmin olunarsa, əhalinin həyat səviyyəsi yüksələcəkmi?*

***Əslində, bu, elə də real görünmür, amma... mövcud tendensiyalar belə davam edərsə, ilin sonuna qədər Ermənistan dövlət büdcəsinə daxil olan ÜDM-in 7 faizlik artımına nail ola biləcək. Lakin demək lazımdır ki, bu artım respublikanın iqtisadi potensialının genişlənməsi hesabına deyil, sadəcə olaraq, Rusiya-Ukrayna böhranının "yan təsirləri" hesabına baş verəcək. Təbii ki, bu da ölkə əhalisinin həyat səviyyəsinin yaxşılaşmasına heç bir təsir göstərməyəcək.***





Maraqlıdır ki, bu Ermənistanda rəyi soruşulan bir neçə iqtisadçının gəldiyi qənaətdir. O da maraqlıdır ki, rəyi soruşulan iqtisadçıların, deyildiyi kimi, əksəriyyəti oxşar fikir səsləndiriblər.

Beləliklə, ermənilərin Statistika Komitəsinin ilkin məlumatlarına görə, 2022-ci ilin yanvar-may aylarında ölkədəki aktivlik guya 10,2 faiz təşkil edib. Deyim ki, Ermənistandakı əksər iqtisadçılar buna inanmaq istəmirlər. İnanlar da, əgər bu artım, doğrudan da, varsa, "...deməli bu xarici amillərlə əlaqəli artımdır"-deyirlər.

Məsələn, İrəvan Dövlət Universitetinin kafedra müdiri Karlen Xaçatryan hesabat dövründə bu artımın əsas təkanverici qüvvəsinin xidmət sektoru olduğunu deyir ki, sonradan bunun da istehlakın artması sayılmadığını etiraf edir.

...Qalanı isə, Ermənistana gələnlərin və Rusiyada işləyən ermənilərin hesabına köçürmələrin sayının artması ilə bağlıdır. Xaçatryana görə, bu gün Ermənistnda deyilənlərdən fərqli olaraq, sənaye sektorunun artımı son dərəcə cüzidir. Yəni bu artım,.. və əgər buna artım demək olarsa, cəmi 2,7 faiz səviyyəsindədir ki, bu da Ermənistan iqtisadiyyatının məhdud potensialından xəbər verir.

Bəli, doğrudur, bu gün Nikolun İrəvanda öyündüyü tikinti sektoru 11,4 faiz artıb, lakin bu artım da, mütəxəssislərin dediyinə görə, müvəqqəti xarakter daşıyır. Niyə? Çünki 2022-ci il iyulun 1-dən baçlayaraq İrəvanda ipoteka krediti üzrə gəlir vergisinin qaytarılması sisteminin mərhələli şəkildə ləğvinə başlanacaq. Ona görə də, hazırda bəzi tikinti şirkətləri proqram çərçivəsində sonuncu "imkan pəncərəsi"ndən yararlanmağa çalışırlar.

Yenə də, nə bilmək olar, əgər mövcud tendensiyalar davam edərsə, Ermənistan 2022-ci ildə iqtisadi artımı 7,5 faiz səviyyəsində qeyd edə bilər. Lakin Xaçatryan əmindir, bu ancaq xarici amillərin verdiyi "təkan" hesabına reallaşa bilər. Yəni bu nəticə hökumətin səyləri ilə əldə edilməyəcək.

Bu arada "Alternativ" tədqiqat mərkəzinin rəhbəri, iqtisadçı professor Tatul Manaseryan Ermənistanın, daha doğrusu, onun maliyyə orqanlarının 7 faizlik artımı təmin edə biləcəyinə şübhə edir. Çünki o, əmindir ki, Ermənistan iqtisadiyyatının müsbət tendensiyası...sadəcə olaraq, bu gün ölkəyə gələn "qondarma" qonaqların axını ilə bağlıdır. Yəni əgər, sabah Ermənistana gələn qonaqların sayı azalsa, deməli,.. hər şey sabahda qalacaq.

Maraqlıdır ki, Tatul Manaseryan cari ilin iqtisadi nəticələri ilə bağlı proqnoz verməkdən də çəkinir. Amma polisin illik büdcəsinin elm sektorunun büdcəsindən 6 dəfə çox olan ölkədə iqtisadi potensialın genişlənməsindən, uzunmüddətli artımdan danışmağı məsləhət görmür.

Yeri gəlmişkən, bir müddət bundan əvvəl Ermənistanın maliyyə naziri Tiqran Xaçatryan da hökumət iclasında 2022-ci ilin sonuna kimi Ermənistan dövlət büdcəsinə daxil edilən ÜDM-in 7 faizlik artım tempini təmin edəcəyini bəyan etmişdi. Amma, o da bunu necə edəcəyini dəməmişdi.

...Və bu arada ölkə ÜDM-nin inkişafına təkan vermək əvəzinə küçələrə çıxıb Nikolun istefasını tələb edənlər hələ bir Avropa İttifaqını Ermənistanda baş verənlərə qiymət verməyə də çağırış ediblər.

P.S. ...Dünənə qədər Mərkəzi Asiya xalqlarını aşağılayıb, onları həmən yerlərə sonradan köçənlər kimi "tanıtmağa" çalışan ermənilər, indi Nikol Paşinyanı Qazaxıstan rəhbəri Kasım-Jomart Tokayevdən nümunə götürməyə çağırıblar. Amma, deyim ki, erməni mədəniyyəti səviyyəsində. Çünki bu millətin xislətindən gəlir,..Siz də erməninin dediklərinə diqqət yetirin: "Düşünürük ki, bizim hökumət Moskva ilə münasibətləri necə qurmağı Mərkəzi Asiya köçərilərindən öyrənməlidir".

Adətən, belə yerdə... kökdən gəlir, deyirlər, amma görən ermənilərin kökü varmı?

***Ağasəf Babayev***



# YAP tarixi zərurətdən yaranmış partiyadır!

*YAP Nəsimi rayon təşkilatının təsis edilməsinin 29-cu ilinə həsr edilmiş tədbir keçirilib*





***Yeni Azərbaycan Partiyası (YAP) Nəsimi rayon təşkilatı tərəfindən rayon təşkilatının yaranmasının 29-cu ildönümü münasibətilə təşkilatın qərargahında tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.***



Azərbaycan Respublikasının dövlət himni səsləndirildikdən sonra Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.Sonra YAP Nəsimi rayon təşkilatının 29 illik fəaliyyətinin bir hissəsini əks etdirən video-çarx nümayiş etdirilib.Tədbirdə çıxış edən YAP Nəsimi rayon təşkilatının sədri, tarix üzrə fəlsəfə doktoru Azər Süleymanov bildirib ki, Yeni Azərbaycan Partiyası ölkəmizin siyasi təşkilatları arasında bərabəri olmayan bir partiyadır. YAP Nəsimi rayon təşkilatının da partiyanın əldə etdiyi nailiyyətlərdə rol oynadığını vurğulayan A.Süleymanov qeyd edib:"Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı 1993-cü il iyulun 6-da Azərbaycan Tibb Universitetinin akt zalında 240 nəfərin iştirakı ilə yaranıb. Bu gün isə rayon təşkilatının sıraları kəmiyyət və keyfiyyət baxımından sürətlə genişlənir. Hazırda 100 ərazi ilk partiya təşkilatında cəmiyyətin müxtəlif təbəqələrindən 31 minə qədər üzv birləşib".

Nəsim rayon icra hakimiyyətinin başçısı Asif Əsgərov bildirib ki, Yeni Azərbaycan Partiyası xalqın mənafelərinə xidmət etmək, ölkəmizin qarşısında duran məsələləri həll etmək üçün zamanın tələblərinə uyğun olaraq, zərurətdən yaranmış bir partiyadır. Qısa müddət ərzində Yeni Azərbaycan Partiyası xalqın böyük əksəriyyətinin etimadını qazanıb və güclü təşkilatlanma ilə avanqard siyasi qüvvəyə çevrilib. Bu isə dünənin, bu günün, gələcəyin partiyasının təməlində yalnız xalqın sevgisinin, etimadının dayandığını bir daha sübut edir.

Daha sonra YAP Mərkəzi Aparatının Siyasi təhlil, maarifləndirmə və seçkilərlə iş şöbəsi müdirinin müavini, siyasi elmlər üzrə fəlsəfə doktoru Asif İmaməliyev öz çıxışında gələn qonaqlara Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun salam və təbriklərini çatdırıb. O, çıxışında 1992-ci ildə mövcudluğumuzun sual altında olduğu bir zamanda bu cür taleyüklü məsələdə xalqımızın yanında olan Ümummilli Lider Heydər Əliyevin xilaskarlıq missiyasını öz üzərinə götürməsindən bəhs edib. "91-lər"in müraciəti əsasında 1992-ci il noyabrın 21-də Naxçıvanda Ümummilli Lider Heydər Əliyevin sədrliyi və 550 nəfərdən ibarət təşəbbüs qrupunun iştirakı ilə keçirilən təsis konfransı müxalifət partiyası kimi yaradıldı və qısa müddət ərzində bu partiya cəmiyyətdə layiqli yerini tutdu, aparıcı siyasi qüvvəyə çevrildi. A.İmaməliyev onu da vurğulayıb ki, 1993-cü ildə ölkəmizdə xaos və anarxiyanın hökm sürdüyü günlərdə Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtması nəticəsində siyasi-ictimai sabitlik bərpa olundu, vətəndaş müharibəsinin qarşısı alındı. Məhz Ulu Öndərin gərgin səyləri ilə Azərbaycan çətinliklərdən keçdi, inkişaf və tərəqqiyə qovuşdu.

YAP Veteranlar Şurasının üzvü, professor Dilarə Seyidzadə qeyd edib ki, YAP Azərbaycanın son dərəcə ağır zamanında, ölkədəki hərc-mərcliyin baş alıb getdiyi bir dövrdə yaranıb:"Həmin illərdə Azərbaycanda bir sıra siyasi partiyalar fəaliyyət göstərsələr də, onlar arasındakı daxili çəkişmələr imkan vermirdi ki, ölkədə yaranan böhran aradan qaldırılsın. Azərbaycan müstəqilliyini itirməyə doğru gedirdi. Bunu görən, xalqının taleyinə laqeyd qala bilməyən insanlar ölkəmizin işıqlı gələcəyi naminə, yeni çağırışlara cavab verə biləcək partiya yaratmaq təşəbbüsü ilə çıxış ediblər. Bu məqsədlə, Ümummilli Lider Heydər Əliyevin ətrafında sıx birləşərək, Yeni Azərbaycan Partiyasını yaratmağa nail olublar. 1992-ci il noyabrın 21-də Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə təsis konfransı keçirilib və Yeni Azərbaycan Partiyasının Proqram və Nizamnaməsi qəbul edilib, Ümummilli Lider yekdilliklə partiyanın sədri seçilib. Beləliklə də müstəqil Azərbaycanın ən güclü partiyası - Yeni Azərbaycan Partiyası yaranıb".

Sonda çıxış edən YAP Veteranlar Şurasının üzvü, professor Şahlar Əsgərov vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil, demokratik Azərbaycan onun müəyyən etdiyi strateji xətlə inamla irəliləyir, inkişafını davam etdirir. O, Yeni Azərbaycan Partiyasının xalqı öz ətrafına birləşdirərək, Ümumxalq partiyasına çevrildiyini, eyni zamanda, ölkədə demokratiyanın inkişafında aparıcı qüvvə kimi özünü təsdiqlədiyini bildirib. Qeyd edib ki, YAP-ın amalı xalqa, Vətənə, dövlətə sədaqətlə xidmət etməkdən ibarətdir. Sonda YAP Nəsimi rayon təşkilatının yaradılmasında və fəaliyyətində xidmətləri olmuş bir qrup şəxsə diplomlar təqdim olunub.

***Nəzakət Ələddinqızı***

# YAP Tərtər rayon təşkilatının yaradılmasının 29-cu ildönümü qeyd olunub





YAP Tərtər rayon təşkilatının yaradılmasının 29- cu ildönümü ilə əlaqədar Gigiyena və Epidemiologiya Mərkəzi ərazi partiya təşkilatında tədbir keçirilmişdir. Tədbirdə çıxış edən rayon təşkilatının sədri Eldar Əsədov əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Yeni Azərbaycan Partiyasının yaranma tarixi, keşməkeşli və şərəfli yolundan, partiyanın Azərbaycan dövlətinin yaradılması və dövlətçiliyimizin qorunub saxlanılması və daha da qüdrətlənməsi istiqamətində yürütdüyü siyasətdən bəhs edərək, partiyamızın yerli təşkilatı olan YAP Tərtər rayon təşkilatının yaradılmasının 29 - cu ildönümü münasibətilə tədbir iştirakçılarını təbrik etmişdir. Eldar Əsədov çıxışında YAP-ın VII Qurultayından sonra partiyanın yeni Proqram və Nizamnaməsi tələblərinə uyğun olaraq yerli və ərazi partiya təşkilatlarının qarşısına qoyulan vəzifələrdən və bu vəzifələrin həyata keçirilməsində hər bir partiya üzvünün məsuliyyətinin artırılmasının vacibliyindən danışmışdır. Rayon təşkilatının sədri son 19 ildə ölkəmizin siyasi, sosial-iqtisadi və mədəni sahələrdə əldə etdiyi uğurların, dövlətimiz və xalqımız üçün ən böyük zirvə olan 44 günlük Vətən müharibəsində qazanılmış Zəfərin dövlətçilik tariximizdə şanlı yer almasını vurğulamış, postmüharibə dövründə partiyamızın sədri, ölkə Prezidenti cənab İlham Əliyevin yürütdüyü daxili və xarici siyasətin uğurla həyata keçirilməsi nəticəsində ölkəmizin dünyada söz sahibinə çevrilməsinə, iqtisadiyyatımızın sürətli inkişafının təmin edilməsinə, insanlarımızın təhlükəsizliyinin və rifah halının yüksək səviyyəyə çatdırılmasına nail olduğumuzu göstərdi.

Tədbirdə çıxış edən ərazi partiya təşkilatının sədri İntiqam Mustafayev, partiya üzvlərindən Gültəkin Hüseynova, Nərmin Müseyibli, Nəsibə Tahirova və Faiq Mürsəlov çıxış edərək Yeni Azərbaycan Partiyasının müasir Azərbaycan dövlətinin siyasi və iqtisadi həyatındakı müsbət rolundan və çağdaş tariximizin yaradılmasındakı səmərəli fəaliyyətindən bəhs edib, rayonumuzda YAP rayon təşkilatının fəaliyyətinin yüksək səviyyədə dəyərləndirilidiyini bildirib, partiya üzvlərinin bundan sonra da, YAP-ın Proqram və Nizamnamə tələblərinə ciddi əməl etmələrini əsas vəzifə kimi qəbul etdiklərini vurğuladılar.

***Rəfiqə***

# Sanksiyalardan qalib çıxan kim: Rusiya, yoxsa Qərb?



***Qərbin sanksiyaları Rusiyanı zəiflədə bilmədi və onları tətbiq edənlərə daha çox ziyan vurdu. Bu barədə Qərb mətbuatı (The Hill) yazır. Məqalə müəllifləri qeyd edir ki, ABŞ sevimli siyasi aləti ilə özünün "qlobal üstünlüyünün" tabutuna son mismar vurmaq riski ilə üzləşir. Rusiyanın Ukraynadakı hərbi əməliyyatı artıq beşinci aydır və Qərb liderləri açıq şəkildə olmasa da, Moskvaya qarşı görünməmiş sanksiyaların onların öz iqtisadiyyatlarına zərər verdiyini, lakin Kremlin hərbi maşınına ciddi ziyan vurmadığını etiraf etməyə başlayırlar. Son G-7 və NATO sammitlərinin göstərdiyi kimi, Qərb liderləri Rusiya prezidentini dayandırmaq üçün yeni yollar tapa bilmirlər.***




Əslində ABŞ-ın başçılıq etdiyi sanksiyaların nəticələrindən biri də ucuz neft və qaz dövrünün sonu oldu. Onlar inflyasiyanın artmasına, tədarük çatışmazlığına və Qərbi təhdid edən tənəzzülə töhfə veriblər. Kasıb ölkələrdə sanksiyalar yanacaq və ərzaq qiymətlərini artırıb, ictimai rifahı və siyasi sabitliyi təhdid edib. İqtisadi məhdudlaşdırıcı tədbirlər həmişə arzuolunmaz və gözlənilməz nəticələr yaradır, lakin ABŞ üçün onlar sevimli siyasi alətə çevriliblər.

Vaşinqtonun Kuba, İran, Şimali Koreya, Suriya və Venesuela kimi kiçik və iqtisadi cəhətdən zəif ölkələrə qarşı tətbiq etdiyi sanksiyalar onları davranışlarını dəyişməyə məcbur etməyib. Lakin bu fakt Qərb liderlərinin strateji şövqünü heç bir şəkildə azaltmadı və onlar sanksiyaları ön plana çıxararaq, böyük xammal ehtiyatlarına və ən böyük arsenalına malik olan Rusiyaya qarşı hərtərəfli hibrid müharibəyə başladıqda onların gözləntilərini azaltmadı.

Sanksiyaya məruz qalan ölkənin ölçüsü nə qədər böyükdürsə, onun imkanları bir o qədər çox olur və məhdudiyyətlərin çəkindirici təsiri bir o qədər zəif olur. Qərb başa düşməyə başlayır ki, böyük və güclü dövlətə qarşı iqtisadi tədbirlər onları tanıdan ölkələr üçün ciddi xərclərlə doludur, həm də onlardan istifadə etməkdən imtina edənlər üçün bir nemət olur. Qeyd etmək lazımdır ki, sanksiyalar Rusiyaya bahalı enerji resurslarının ixracından gözlənilməz gəlirlər verdi və heç bir qiymət məhdudiyyəti bu gəlirləri əhəmiyyətli dərəcədə azalda bilməz.

Bu gün Rusiyaya qarşı sanksiya siyasətinin getdikcə aşkar çatışmazlıqları Qərbin gücünün və təsirinin məhdudlaşdırılmasını ön plana çıxarır. İqtisadi güc Şərqə axır və Qərbin qərarlarının gücünü göstərmək üçün çoxsaylı xarici tərəfdaşlara ehtiyacı var. Lakin qeyri-Qərb dünyasının əksəriyyəti sanksiyalar kampaniyasına qoşulmaqdan imtina edib. Qlobal Cənubun bütün aparıcı demokratik dövlətləri, İsrail, eləcə də Fars körfəzi ölkələri NATO ilə Moskva arasındakı münaqişədə heç bir tərəfi tutmaq istəmirlər.




Əsas dərs ondan ibarətdir ki, prezident Bayden Rusiyaya qarşı ağır iqtisadi cəza tətbiq etmək hədələri ilə Putini kütləvi hərbi əməliyyata başlamaqdan çəkindirə bilmədi. Həm də Qərbin sanksiyalarının Kremlin hərbi səylərinə demək olar ki, heç bir təsiri olmadı. Lakin Qərb bu dərsə məhəl qoymur və getdikcə daha çox cəza tədbirləri tələb edir. Rusiyaya qarşı sanksiyalar artır və Ukraynaya ölümcül hərbi yardım artmaqdadır, sanki ABŞ-ın Kremlə təzyiq etmək və münaqişəyə qarışmaq istəyində heç bir məhdudiyyət yoxdur.

ABŞ Milli Kəşfiyyatının direktoru Avril D. Haines ötən həftə etiraf edib ki, Rusiya artıq Ukrayna ərazisinin beşdə birini işğal edib. Ancaq bu, Avropanın ən böyük ölkəsidir, tamamilə öz sərhədləri daxilindədir. Hayns qeyd etməyib ki, Moskva hazırda Ukraynanın minerallarla zəngin sənaye rayonlarına, enerji resurslarının 90%-dən çoxuna (bütün dənizdəki neft yataqları daxil olmaqla), liman və gəmiçilik infrastrukturunun böyük hissəsinə nəzarət edir. O, həmçinin Krıma strateji əhəmiyyətli quru körpüsü yaradıb və Azov dənizini daxili sulara çevirib.

Bayden mart ayında vaxtından əvvəl sanksiyaların "Rusiya iqtisadiyyatını əzəcəyi" və "rublun zibilliyə çevriləcəyi" ilə öyünürdü. Lakin Rusiyaya qarşı sanksiya kampaniyası səmərəsiz olduğunu sübut etdi və Putinin Ukrauna kampaniyası öz sürətini azaltmaq niyyətində deyil.

Əsas səbəblərdən biri Rusiyanın hələ də güclü maliyyə imkanlarına malik olmasıdır. Qərb ölkələri Rusiya Mərkəzi Bankının təxminən 400 milyard dollarlıq aktivlərini, həmçinin ən azı 240 milyard dollarlıq şəxsi sərvətini dondursalar da, bu gün Moskvanın təxminən 300 milyard dollar qızıl-valyuta ehtiyatı var. Rubl isə dollar qarşısında daim möhkəmlənir və onun məzənnəsi artıq son 7 ildə rekord həddə çatıb.

Qərb nəhayət ki, xoşagəlməz reallığı dərk etməyə başlayır. "Rusiya uduzur" və "Putin məğlubiyyətdən qaça bilməyəcək" kimi bəyanatlar, Moskvaya qarşı misli görünməmiş sanksiyalara və Ukraynaya silah-sursat daşınmasına baxmayaraq, Rusiya ordusunun sonda Ukrayna ərazisinin böyük bir hissəsinə daimi nəzarəti bərqərar edəcəyi ilə bağlı gizli qorxularla əvəz olunur.

Avropa Rusiyanın maliyyə sisteminə zərbə vurmaq istəyi barədə "JB Press" nəşri də yazı dərc edib. Bildirilir ki, Moskvaya qarşı sanksiyalar Aİ-ni dərin iqtisadi böhran riski qarşısında qoyur və vəziyyət daha da pisləşə bilər. Sərt reallıq budur ki, indiyə qədər Qərb Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalardan uduzur. Bunu Qərb maliyyə bazarlarının qərəzsiz təhlilinin nəticələri və Avropa Mərkəzi Bankının məlumatları göstərir. Qərbi Avropa ölkələri AMB-nin faiz dərəcəsinin artırılmasının qaçılmaz ehtiyacı fonunda Ukraynada atəşkəs əldə etməyə çalışırlar.

Qlobal inflyasiyanın sürətlənməsi, resurs və ərzaq çatışmazlığı ilə bağlı artan narahatlıqlar fonunda Rusiya özünü təmin edən iqtisadi sistem qurur. Moskvanın valyuta ehtiyatları hazırda dünyada beşinci yerdədir və demək olar ki, bütün ABŞ Xəzinədarlıq istiqrazları Rusiyanın Ukraynada hərbi əməliyyatına başlamazdan illər əvvəl satılıb. Rusiyanın valyuta ehtiyatlarının 20%-dən çoxu metal qızıldır. Rusiyanın cari hesabı müsbət ərazidə qalır və dövlət borcunun qalığı ümumi daxili məhsulun cəmi 19%-ni təşkil edir. Bu, büdcə kəsirinin sürətlə artdığı Qərb ölkələri ilə ziddiyyət təşkil edir. Yaponiyada dövlət borcu illik ÜDM-in 225% (2000-ci ildə - 109%), ABŞ-da müvafiq olaraq 118% və 53%, Böyük Britaniyada - 103% və 38%, hətta Çində - 72% və 22% təşkil edir. . Rusiyaya gəlincə, Dünya Bankının məlumatına görə, burada mənzərə təəccüblü tərsinə çevrilib: hazırda Rusiyanın daxili dövlət borcu ÜDM-in 19%-ni təşkil edir, 2000-ci ildə isə 91% idi.

Qərb ölkələri Rusiyaya qarşı hərbi əməliyyatlar aparmaq üçün Ukraynaya silah göndərir və eyni zamanda Rusiya banklarının beynəlxalq ödəniş sistemindən (SWIFT) kənarlaşdırılması kimi anti-Rusiya iqtisadi sanksiyaları tətbiq edir. Lakin Rusiya buna fəal şəkildə qarşı çıxır. Öz əlinə oynayır ki, hazırda taxıl və gübrə ixracının azalması səbəbindən bu malların qlobal bazarları güclü aşağı meyllər nümayiş etdirir. Ümumiyyətlə, onlarla bağlı vəziyyət Rusiya üçün çox uğurla inkişaf edir və hətta sovet dövrünün ən güclü illərinə bənzəyir.




Geriyə nəzər salsaq, 1989-cu ildə "Soyuq Müharibə" başa çatdıqdan sonra Şərqi Avropa ölkələri üçün onların məhsulları üçün kanallar və bazarlar genişləndi və ümumiyyətlə, ucuz işçi qüvvəsi hesabına onların istehsalının maya dəyəri azaldı. Planetdə bərqərar olmuş sülh qlobal iqtisadi inkişafın hərəkətverici qüvvəsinə çevrilmişdir. Ancaq indi bu şərtlər pozulub, saatın əqrəbləri 30 il əvvəlki vəziyyətə qayıdıb.

Qərb ölkələrinin ən böyük zəifliyi böyük dövlət borcu ilə yüklənmiş maliyyələridir. Əsas neft və taxıl ixracatçısı olan Rusiya ilə ticarət əlaqələri Qərb tərəfindən qəsdən kəsildiyindən bu və digər əmtəə məhsullarının dünya qiymətləri kəskin şəkildə qalxdı, faiz dərəcələri yüksəldi, səhmlərin qiymətləri isə tam çökmək ərəfəsindədir.

Rusiyaya və qonşu ölkələrə iri həcmdə kreditlər vermiş Avropanın iri banklarının səhmlərinin aşağı düşməsi xüsusilə qorxuludur. Orta hesabla, bu səhmlər bu ilin fevral ayının ən yüksək göstəricilərindən 30-40% aşağı düşüb. "Raiffeisen Bank"-ın təəccüblü mənzərəsi var: onun səhmlərinin dəyəri 01.02.2022-ci il tarixinə nominalın 100%-dən 17.06.2022-ci il tarixinə 37%-ə düşüb. Fransız "Societe Generale" oxşar dinamika nümayiş etdirir - müvafiq olaraq 100% və 63%. İtalyan "UniCredit" - 100% və 61%. Bir çox Avstriya bankının səhmlərinin dəyəri fevral ayının qiymətinin yarısından aşağı düşüb. Eyni zamanda, avro/dollar məzənnəsi də kəskin ucuzlaşıb. İndi də deyəsən, Avropanın bütün guşələrində Avropa iqtisadiyyatının anti-Rusiya sanksiyaları fonunda sözün əsl mənasında "qanaxma" hayqırtıları eşidilməyə başlayıb.

Qeyd edək ki, Rusiyada səhmlərin qiymətləri və valyuta məzənnələri Rusiya xüsusi əməliyyatı başlayandan dərhal sonra kəskin ucuzlaşsa da, zaman keçdikcə xeyli bahalaşıb və rublun avroya nisbətdə məzənnəsi 2015-ci ilin səviyyəsinə qayıdıb. Əgər mart-aprel aylarında orta hesabla 90 rubl təşkil edibsə və 146,2 rubla (bu il qeydə alınan ən yüksək göstərici) "sıçrayıb"sa, iyunun 24-də o, uzun müddətdir stabil olan 57,2 rubl səviyyəsində sabitləşib.

Başqa sözlə, Ukrayna münaqişəsində kimin qalib, kimin isə uduzan tərəf olduğunu siz deyin. Reallığı başqa mənbələrdə də axtarmaq olar. Amma rəqəmlərin bir o qədər də fərqlənməyəcəyi qənaətindəyik

**V.VƏLİYEV**

ANALİZ

# Kanada İrəvanda səfirlik açdı, Rusiya barmaq silkələdi!

***Kanadanın Ermənistanda səfirliyinin açılması ölkənin siyasi gündəmində səs-küylü situasiya yaradıb. Məsələ ondadır ki, Ottava İrəvanda rəsmi diplomatik nümayəndəliyini açması ilə yanaşı bəyan edib ki, burada əsas məqsəd Baltikyanı və Şərqi Avropa ölkələrində "Rusiyanın destabilləşdirmə istiqamətindəki fəaliyyətinin qarşısını almaqdan" ibarətdir. Lakin ziddiyyətli fikirlərə səbəb olan bu amildən sonra digər faktorlar da ortaya çıxıb - Ermənistan hökuməti nəyə görə balanslı siyasət qura bilmir və Kanadanın qeyd edilən bəyanatı qarşısında Rusiya ilə münasibətlərini daha da gərginləşdirir? Məhz bu sual erməni ictimai-siyasi rəyində ziddiyyətlər yaradıb.***







### Ermənistan rəhbərliyi bu kimi məsələlərdə qapazaltıya çevrilib

Hətta erməni KİV-ləri Azərbaycanı nümunə göstərməklə müstəqil siyasət qurmasından örnək götürülməsini qeyd edirlər. Belə ki, Bakı istər Qərb, istərsə də Rusiya ilə münasibətlərini yüksək səviyyədə tənzimləyir. Üstəlik vurğulanır ki, Ermənistan rəhbərliyi bu kimi məsələlərdə qapazaltıya çevrilib. Misal üçün, erməni analitik yazarı Tevos Arşakyan yazır: ""Mən güclüyəm, sən zəifsən, deməli nə desəm onu da edəcəksən və cürətin çatırsa özünün müstəqil siyasətini yürüdəsən - dərhal cəzalandırılacaqsan". Moskvanın ənənəvi olaraq bizə öz iradəsini diktə etməsi və kiminlə dostluq quraraq hansı üsulla ikitərəfli əlaqələri inkişaf etdirə bilməmiz fonunda Ermənistan-Rusiya münasibətlərini məhz bu cür xarakterizə edə bilərik".

Erməni siyasi şərhçisi sual edir ki, axı Rusiya nəyə görə öz oyun qaydalarını Ermənistana diktə edir? Belə ki, hazırda nə Ermənistan, nə də mövcud hökumət ona borclu deyil. SİTAT: "Gəlin erməni cəmiyyətini yerindən oynadan bu olaya misal gətirək. Bu günlərdə Rusiyanın Ermənistandakı səfirliyi Kanada XİN-ni səfirlik açdığı ərəfələrdə tənqid atəşinə tutdu. Yuxarıda da bildirildiyi kimi, məsələ ondadır ki, Kanada Ermənistanda rəsmi diplomatik nümayəndəliyini açması ilə yanaşı bəyan edib ki, burada əsas məqsəd Baltikyanı və Şərqi Avropa ölkələrində "Rusiyanın destabilləşdirmə istiqamətindəki fəaliyyətinin qarşısını almaqdan" ibarətdir. Rusiya isə dərhal buna cavab olaraq Ermənistan hölkumətini hədəfə alaraq cavab bəyanatı ilə çıxış etdi. Dərhal belə bir fikir yarandı ki, bu cür siyasi xətt erməni xalqının təhlükəsizliyinə hansı təsirlərini göstərəcək?".

### Erməni analitiki: "Bəs biz ümumiyyətlə harada yaşayırıq, suveren ölkədə, yoxsa Rusiya Federasiyasının tərkibində olan hansısa respublikasında?"

Məhz bu cür vəziyyətdə odla-su arasında qalan və əslində qeyri-müstəqil ölkə olduqlarını bir daha müşahidə edən erməni ictimai rəyi əmin olur ki, onlar hətta suveren ölkə kimi də mövcud deyillər. Əbəs deyil ki, həmin məsələyə adıçəkilən erməni siyasi şərhçisi belə münasibət göstərib. SİTAT: "Bəli, biz də istər-istəməz düşünürük - bəs biz ümumiyyətlə harada yaşayırıq, suveren ölkədə, yoxsa Rusiya Federasiyasının tərkibində olan hansısa respublikasında? Görünür, Rusiyanın səfirliyi ikinci varianta üstünlük verir. Rusiyalı diplomatların amiranə tonları da bununla izah edilə bilər. Belə olan halda biz onları göydən yerə endirməyə tələsməliyik - Ermənistan müstəqil ölkədir və öz ərazisində hansı ölkənin səfirliyini açması barədə də özü qərar verə bilər".

Göründüyü kimi, müəllif bu məsələdə açıq-aydın ifadə edir ki, ölkəsi sözdə müstəqil, suveren ola bilər, amma reallıqda öz başı heç öz əlində də deyil. Əks halda nə Rusiya, nə də Kanada Ermənistanı öz iradələri formasında istifadə etməzdilər. Yəni Tevos Arşakyan istədiyi qədər "Ermənistan müstəqil və suveren ölkədir" tipli ideyasını deyə, yaza, car çəkə bilər, amma fakt tamamilə başqa tərəfi göstərir - Ermənistan qeyri-müstəqil, qeyri-suveren və asılı, vassal ölkələr sırasında yer alır!



### Fəqət, erməni şərhçi bu cür düşünmür və sən demə, Rusiya Ermənistan üçün canlı qüvvə də göndərməli, üstəlik, ermənilərin işğalçılıq siyasətinə görə öz hərbçilərini qurban verməliymiş!

Və bu reallığı sübut edən daha bir gerçəklik var - 44 günlük müharibə dövründə Ermənistan dəfələrlə KTMT-ni, xüsusilə müttəfiqi olan Rusiyanı Qarabağ cəbhəsinə müdaxilə etməyə səslədi, amma Moskva, eləcə də KTMT açıq şəkildə bəyan etdi ki, Azərbaycan öz ərazisində hərbi əməliyyatlar aparır və Ermənistan işğalçı qüvvə olaraq əsla öz müttəfiqlərindən siyasi, hərbi dəstək ala bilməz. Fəqət, erməni şərhçi bu cür düşünmür və sən demə, Rusiya Ermənistan üçün canlı qüvvə də göndərməli, üstəlik, ermənilərin işğalçılıq siyasətinə görə öz hərbçilərini qurban verməliymiş! Bax, əsl erməni həyasızlığı, əsl erməni məkri və şeytanlığı da bu kontekstdə əks olunmaqdadır...

Halbuki, Rusiya 44 günlük müharibə zamanı Ermənistana silah-sursatlarla dolu hərbi yük təyyarələri göndərir, bütün mümkün təchizatlarla təmin edirdi. Nədənsə Tevos Arşakyan buna görə Rusiyaya "çox sağ ol" demir və əvəzində buynuz atmağı da unutmur, hansı ki, bütövlükdə erməni cəmiyyətinin sağalmaz xəstəliyinə çevrilmiş bu davranış həmin buynuzun kökündən sındırılması ilə də nəticələnə bilər!

### Hələ bir cürət göstərsinlər və Kremli qəzəbləndirsinlər, görək Kreml İrəvana hansı münasibətini göstərəcək?

Daha bir maraqlı nüansa diqqət yetirək. Erməni siyasi analitiki Qazaxıstandan ibrət götürməyi də unutmayıb. SİTAT: "Bəli, biz Rusiya ilə müttəfiqik. Qoy əməli olmasa da, sözdə olsun. Lakin Rusiyanın Qazaxıstandakı səfirliyi bu ölkədə həmin ölkənin rəhbərliyi ilə eyni tonda danışa bilərmi? Əlbəttə ki, yox. Qazaxıstan ümumiyyətlə son vaxtlar Rusiyanı özündən uzaqlaşdırmaq siyasətini həyata keçirir".

Beləliklə, erməni müəllif hökumətini həta Qazaxıstandan da ibrət götürməyə səsləyib və Moskva ilə münasibətlərinə yenidən baxmağa dəvət edib. Bu da azmış kimi tələb edib ki, erməni hökuməti Rusiyaya öz yerini göstərsin və s.

"Ermənistanla dostluq etmək istəyirsiniz? Onda amiranə tonu özünüzdə saxlayın. Biz isə özümüzə qarşı hörmətli münasibət göstərməyi tələb edirik. Rusiya öz dostları arasında özünə yeni düşmənlər axtarmasın. Belə də ki, biz artıq ruslarla nə vaxtdan dost olmuşuq ki?", deyə sual edən erməni siyasi şərhçisi həqiqətdə fikir deyil, hətta analiz də deyil, dediklərinin sadəcə boş hava olduğunu dərindən anlayır. O və erməni cəmiyyəti yaxşı bilir və dərk edirlər ki, artıq bundan sonra nə qədər çabalasalar da Rusiyanın caynaqlarından qurtulmağı bacarmayacaqlar. Yaxud, onlar nə qədər Moskvanın əleyhinə, maraqlarına qarşı çıxacaqlarsa bir o qədər də məngənələr arasında sıxışıb qalacaqlar. Necə deyələr, hələ bir cürət göstərsinlər və Kremli qəzəbləndirsinlər, görək Kreml İrəvana hansı münasibətini göstərəcək? Əslində göstərir də, sadəcə, erməni tərəfi anlamır.

Qaldı ki Ermənistanın doğru seçim etməsinə, - bu seçim qonşuları ilə münasibətlərini tənzimləməsi ilə bağlıdır və belə görünür ki, Ermənistanda kimlərin hakimiyyətdə olub-olmamalarına baxmayaraq, bu ölkə onsuz da süquta uğrayacaq, çünki tarixi həqiqətlər və mövcud siyasi reallıqlar başqa istiqaməti göstərir. Yaxınlarda müşahidə edəcəyik...

***Rövşən RƏSULOV***

SİYASİ RAKURS-AKTUAL

# MEDİA mediamızla nə etmək istəyir?

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*






## Mediamızın mövcud problemlərinin onların aradan qaldırılması üçün nələr edilir və edilməlidir?

Xəbər verildiyi kimi, bir neçə gün əvvəl Medianın İnkişafı Agentliyi çap mediası və onlayn media subyektlərinə dəstək layihəsi çərçivəsində 2022-ci ilin ikinci yarısı üçün elan edilmiş müsabiqənin nəticələrini açıqlayıb. Həftədə bir nömrəsi dərc edilən qəzetlərin hər birinə aylıq 5 000 manat, həftədə 5 dəfə çıxan qəzetlərin hər birinə isə aylıq 15 000 manat məbləğində maliyyə yardımı göstərilib. Həmçinin, 33-ü ictimai-siyasi, 6-sı isə idman məzmunlu olmaqla 39 xəbər saytının da hər birinə ayda 3 min manat yardım ayrılıb.



Göründüyü kimi, dövlət hər zaman olduğu kimi mediaya yardımlarını davam etdirir. Qəzet və saytlarda müəyyənləşdirilmiş sahələr üzrə yazıların təvşiqi üçün belə qrant layihələri həm media subyektlərinin maddi-texniki bazasının gücləndirilməsinə, həm jurnalistlərin bu sahədə peşəkarlaşmasına səbəb olur, həm də dövlətin həmin sahələrdə ictimaiyyətə çatdırılması vacib bildiyi məsələlər geniş işıqlandırılır. Hələlik, yardım ala bilməyən bəzi həmkarlarımız narazı qalsa da, yardım alan media subyektləri bu addımı dəstəkləyir. Bəs ekspertlər nə fikirdədir?

**Jurnalist Həmkarlar İttifaqının sədri, Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli** hesab edir ki, dövlətin mediaya yardımı yaxşı haldır: "Yaşadığımız dövr yeni media dövrüdür. Media texnoloji baxımdan inkişaf dövrü keçir və buna uyğun olaraq özünün nəzəri yanaşmasını yeni dövrün tələblərinə uyğunlaşdırır. Yaxşı haldır ki, 2022-ci ilin fevral ayında cənab Prezident Azərbaycanda Media Haqqında Yeni Qanun imzaladı.

Bu qanun yeni media dövrünə adaptasiya olunan Azərbaycan mediasının hüquqi statusunu və təşkilatı formasını müəyyən edir. Həmçinin, jurnalistikanın statusunun müəyyənləşməsi üçün kifayət qədər töhfələr vermiş olur. Bu qanunvericiliyin qüvvəyə minməsindən sonra Azərbaycanda jurnalistlərin və media subyektlərinin missiyası, cəmiyyətdəki rolu və statusu barədə kifayət qədər aydın təsəvvür formalaşır və media da buna uyğunlaşır.

Azərbaycan mediasının yeni dövrə uyğunlaşması üçün dövlətimiz yeni proqramlar da icra edir. Media İnkişaf Agentliyi vasitəsilə KİV subyektlərinə təkmilləşmə üçün maliyyə dəstəyi göstərilir. Bu dəstək 50-dən yuxarı KİV-ə göstərilir ki, onlar da öz fəaliyyətlərini yeni dövrün tələblərinə uyğun qurmaq, inkişaf etmək və cəmiyyəti lazım olan informasiya ilə təmin etmək üçün bu vəsaitdən istifadə edirlər.

Azərbaycanda həm ənənəvi, həm də sosial media inkişaf edir. Əsas odur ki, ölkəmizdə media mühiti normaldır. Yəni, medianın qanunvericilik bazası, təhlükəsizlik normaları, etik standartlar və s. liberaldır. Buna uyğun olaraq Azərbaycan mediası həm kəmiyyət, həm də keyfiyyət baxımından inkişaf edir.

Azərbaycanda informasiya təminatına ictimai rəyin sabit tutulmasına baxsaq və bu ictimai rəyin sabit tutulmasında medianın rolunun olduğunu nəzərə alsaq, Azərbaycan mediası öz üzərinə düşən missiyanı uğurla davam etdirir. Dövlətimiz medianın təkmilləşməsi, yaşaması və keyfiyyətli informasiya istehsal etməsi üçün ona lazımi dəstək və qayğını göstərir".

**"525-ci qəzet"in baş redaktoru Rəşad Məcid** bildirib ki, Medianın İnkişafı Agentliyi tərəfindən çap mediası subyektlərinə və onlayn media subyektlərinə (veb-saytlara) dəstək layihəsi çərçivəsində elan edilmiş müsabiqənin nəticələri sosial şəbəkələrdə çox müsbət qarşılanıb: "Düşünürəm ki, son zamanlarda Medianın İnkişafı Agentliyinin üzərinə böyük yük düşür. Media subyektlərinin maliyyələşdirilməsi, "Media haqqında" qanunun hazırlanması, bir sıra müsabiqələrin təşkil olunması, bunlar hamısı çox ciddi məsuliyyət tələb edən işlərdir.

Jurnalistlər istedadlı və fərqli insanlardır. Bu baxımdan jurnalistlərlə ortaq nöqtə tapmaq, onları qane edəcək nəticələr ortaya qoymaq çətindir. Düşünürəm ki, Medianın İnkişafı Agentliyi bu işin öhdəsindən gəlir. Medianın İnkişafı Agentliyinin elan etdiyi çox müsbət reaksiya doğurur".

**"TvPress.Az" internet qəzetinin baş redaktoru Elçin Bayramlı** isə hesab edir ki, dövlətin mediaya yardımları çox müsbət haldır. Xüsusən də, konkret mövzular üzrə layihələrə qrant ayrılması. Bununla dövlət insanlara çatdırılması vacib olan sosial, iqtisadi, siyasi, mədəni və digər sahələrdə materialların yazılmasını təmin edir.



Lakin ölkədə həddən artıq çox sayda media subyekti olduğundan maliyyə ala bilməyənlər narazı qaldı. Bu təbii qəbul olunmalıdır. Çünki, minlərlə xəbər saytı, qəzet, agentlik fəaliyyət göstərir və dövlət bunların hamısına maliyyə yardımı edə bilməz. Yardım almaq üçün tələblər qoyulub və bu tələblərə cavab verənlərə maliyyə yardımları edilir.

Bizim sayt həmin tələblərə cavab vermədiyindən hər hansı bir yardım və ya qrant layihəsi üçün indiyədək müraciət etməmişik. Lakin bilirik ki, müəyyən olunmuş şərtlərə və tələblərə cavab verdikdə müraciət etmək mümkündür və MEDİA imkan daxilində daha çox media subyektinə yardım etməyə çalışır.

Baş redaktor hesab edir ki, mediamızın əsas problemləri başqa yerdədir: "Ciddi medianın idarə edilməsi, yəni menecment məsələsi Biz hər zaman dünya standartları, peşəkarlıq və sairə məsələləri müzakirə edirik, özümüzü bu prinsiplərə uyğunlaşdırmaq istəyirik. Amma bunu tətbiq edə bilmirik. Bir neçəsini istisna etmək şərtilə əksər media subyektləri tərəfli olur- ya hansısa bir qüvvənin tərəfində və ya bir şəxsin tərəfində. Bu cür idarətmə ilə media bazarına, auditoriyaya girmək mümkün deyil. Çünki həm tərəfsiz, obyektiv materiallar paylaşılmalıdır, həm də auditoriyanın gözlədiyi məlumatlar çatdırılmalıdır. Məsələn mediada sosial problemlərə çox az toxunulur, onun əvəzinə şou xarakterli materiallar işlənilir".

Sayt rəhbəri deyir ki, hazırda oxucu auditoriyası minlərlə qəzet-sayt arasında bölüşüb: "Hər media subyektinə məhdud sayda oxucu düşüb. Media orqanlarının sayının az olması daha effektli olardı. Xırda, zəif və çoxsaylı media orqanlarında təmərküzləşmə prosesi getməlidir. Bir neçə kiçik media subyekti birləşərək, böyük media holdinqləri formalaşmalıdır. Kiçik saytların işçi qüvvəsi saxlaya bilməməsi və ya 1-2 nəfərlə ortaya ciddi media qoyması mümkün deyil. Onun xaricdə və ölkənin regionlarında müxbir postları saxlamaq imkanı yoxdur. Bu kimi çatışmazlıqlarla biz dünya mediasına çıxa bilmərik.

Elçin Bayramlı hesab edir ki, son zamanlar Medianın İnkişafı Agentliyinin bu sahədə həyata keçirdiyi tədbirlər təqdirəlayiqdir: Ümumiləşdirsək, mediamız özünü maliyyələşdirə bilmir, asılıdır, tərəflidir, sponsorludur. Bu tip media ictimaiyyət arasında nüfuz qazana bilməz, ancaq şou auditoriya toplaya bilər. Artıq bunlar ciddi istinad ediləcək media hesab edilmir.

Media kütlələrə psixoloji təsir silahıdır. İnsanlar media orqanlarında dolğun, ciddi , tərəfsiz məlumat ala bilməyəndə artıq sosial şəbəkələr üz tuturlar. Nəticədə ölkə mediası ictimaiyyətə təsir funksiyasını itirir. Bu məsələnin müəyyən edilmiş mexanizmi olmalıdır. Qızıl ortanı tutmaq lazımdır. Senzura olmur, mətbuata tam azadlıq verilir və digər tərəfdən ifrat azadlıq meyllərinin qarşısı alınır. İnsanların bir-birini təhqir etməsi, şər-böhtan atması, təxribat xarakterli məlumatların yayılması məsələlərinə ciddi nəzarət edilməlidir. Digər tərəfdən azad reklam bazarı olmalıdır. Bu özünü maliyyələşdirmə prosesində əsas rol oynayır.

Əsas problemlərdən biri də peşəkarlığın olmasıdır. Bununla bağlı ilk vaxtlarda media orqanlarına maliyyə yardımı lazımdır. Hər hansı bir media özünü tam doğruldanadək ona edilən yardımlarla, peşəkarları ətrafına toplamalı və onları əlində saxlamağı bacarmalıdır.

Elə bir şərait yaradılmalıdır ki, həm dövlətin çatdırmaq istədiyi məlumatlar, həm də ortaya qoyulan sosial problemlər böyük kütləyə çata bilsin. Əhalinin böyük hissəsi həmin media orqanına inansın, onu dinləsin, oxusun, izləsin. Yalnız bu halda biz sosial şəbəkələrin medianı sıradan çıxarmasının qarşısını ala bilərik".

Göründüyü kimi, mediamızın çox sayda problemi var və MEDİA bunların həllinə çalışır. Bu dəstək isə təkcə maliyyə yardımları, qrant layihələri ilə bitmir. Media subyektlərinə həm maddi-texniki, həm mənəvi-pxioloji dəstək verilir. Əməkdaşların peşəkarlaşması, fəaliiyətin şəffaflaşması, reklam bazarına çıxış üçün də dəstək verilir. Mütəmadi olaraq gənc jurnalistlər üçün təlimlərin keçirilməsini, jurnalistlər arasında müsabiqələrin təşkilini də bura aid etmək olar.

Azərbaycan mediası dünya standrtlarına uyğun peşəkar və nüfuzlu bir sistemə çevrilməlidir. Yeni qəbul olunmuş və bu ildən qüvvəyə minmiş Media haqda Qanunun da əsas məqsədi bundan ibarətdir. Mediamız təkcə ölkə səviyyəsində yox, həm də beynəlxalq səviyyədə etibar olunan ciddi bir mənbə statusunu qazanmalıdır. Şübhə yoxdur ki, yaxın bir neçə il ərzində bu məqsədə nail olunacaqdır.

***Lalə Mehralı***

Səs
7 iyul
2022-ci il

# Oyunlar uşaq beyninə necə təsir edir?



*“Hər bir oyunun və məşğuliyyətin insan beyni və şüuraltına axtardığı detallar var. Necə ki, deyirlər hansısa kinolarda, qısametrajlı filmlərdə subnemativ mesajlar var, əslində, bizim uşaqlarımızın da oynadığı hər bir oyunda xüsusi təsir qüvvəsi var". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Zeynəb Eyyubova deyib.*

Onun sözlərinə görə, öz uşaqlıq oyunlarımızı yadımıza salsaq, o vaxtı gizlənqaç oynayırdıq: ”Bu oyun zamanı uşaqda həm eyni anda sayma, həm də göz yumma halı olurdu. Bu oyunlar vasitəsilə uşaqlar sosiallaşır və onlarda dostluq anlayışı yaranırdı”.

Psixoloq sözlərinə belə davam edib: ”Deməli, bir oyun vasitəsilə bizdə diqqət, sayma bacarığı, dostluq keyfiyyəti, əl-göz koordinasiyası, diqqət, inkişaf, böyük-kiçik motorika inkişaf edirdi. Son zamanlar artıq dövrümüzdə zəka və diqqət oyunları çox aktualdır. Ona görə də bu oyunlardan istifadə etmək çox gözəldir. Qrup halında oyun terapilərində uşaqlar çox sevinirlər. Bu sevinci uşaqlara yaşatmaq hər bir valideynin borcudur”.

***Ayşən Vəli***

# İbrahimoviç ”Milan”da 6 ayda nə qədər qazanacaq?



*"Milan" yaxın günlərdə futbolçusu Zlatan İbrahimoviçlə müqavilənin uzadılmasını açıqlayacaq. Qol.az "Sky Sport Italia"ya istinadən xəbər verir ki, 40 yaşlı hücumçunun yeni sözləşməsi 30 iyun 2023-cü ilə qədər nəzərdə tutulub. Nəşrin məlumatına görə, isveçli forvardın maaşı bonuslarla birlikdə 1.15 milyon avro olacaq. Diz bağlarından əməliyyat olunan İbrahimoviç qarşıdakı 1 ilin 6 ayını meydana çıxa bilməyəcək. O, 2020-ci ildən "qırmızı-qaralar"da çıxış edir.*

# Soğan qanda şəkərin miqdarını 4 saat ərzində aşağı salır

*Ucuz və populyar tərəvəz olan soğan birinci və ikinci növ diabet xəstəliklərindən əziyyət çəkən pasiyentlərin qanında şəkərin miqdarını çox qısa müddətdə - cəmi 4 saat ərzində aşağı salmaq qabiliyyətinə malikdir. Xarici ölkə KİV-lərinin yazdığına görə, alimlər soğandan istifadə zamanı qanda şəkərin miqdarının 40 milliqram/desilitr aşağı düşdüyünü müəyyən ediblər.*

Elmi işin müəlliflərindən biri olan Entoni Oçeh deyib: ”Soğan ucuz və əlçatan olan ərzaqdır ki, yeməklərə ədviyyat qismində qatılır. Ondan diabet xəstələrinin müalicəsində də istifadə etmək mümkündür”.

Mütəxəssislər hesab edirlər ki, soğanın bu xassəsi onun tərkibində kversetin və sulfidlərin mövcudluğu ilə izah olunur. Kversetin antioksidant və iltihab əleyhinə təsirə malik olan yaxşı öyrənilmiş flavonoidlər qrupuna daxildir.



# Azərbaycanda ərzaq qıtlığı gözlənilir?



EKSPERT AÇIQLADI

“Hazırkı dövrdə dünyada ərzaq qıtlığından çox ərzağın bahalaşması gündəmdədir”. Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı-ekspert Xalid Kərimli deyib. Onun sözlərinə görə, dünyada ərzaq qıtlığı gözlənilmir: ”Taxıl məhsullarının və duru yağlarının bahalaşması müşahidə olunur. Bu bahalaşmanın davam edəcəyi gözlənilir. Ümumilikdə dünyada ərzaq qıtlığının yaranması gözlənilmir. Amma ərzaq məhsullarının qiymətinin artması, bahalaşması səbəbindən planetin Afrika bölgəsində əhalinin vəziyyəti daha da pisləşib. Bundan başqa bildiyimiz kimi, Rusiya-Ukrayna münaqişəsi hələ də davam edir. Bu iki ölkə ərzaq ölkəsidir və bu iki ölkədə daşınma xərcləri kimi problemlər var. Yəni ərzaq məhsullarının bahalaşması pandemiya və pandemiyadan sonrakı proseslər, Rusiya-Ukrayna münaqişəsinin yaranmasından irəli gəlir. Azərbaycanda gələcəkdə ərzaq qıtlığı gözlənilmir. Amma ərzaq məhsullarının bahalaşması davam edəcək”.

***Arzu Qurbanlı***



*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**